**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TƏDRİS RESURSLARINDAN İSTİFADƏNİN ELMİ-PEDAQOJİ ƏSASLARI

İxtisas: 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi
Elm sahəsi: Pedaqogika

İddiaçı: **Nərminə İsrafil qızı Məmmədova**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin nəzəriyyəsi və tarixi şöbəsində yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** pedaqogika elmləri doktoru, professor
**İntiqam Hilal oğlu Cəbrayılov**

**Rəsmi opponentlər:** pedaqogika elmləri doktoru, professor
**Fərahim Balakişi oğlu Sadıqov**

pedaqogika elmləri doktoru, professor
**Hikmət Əbdül oğlu Əlizadə**

pedaqogika elmləri doktoru, professor
**Şəhla Qasım qızı Əliyeva**

pedaqogika elmləri doktoru, professor
**Kərim Əli oğlu Məmmədov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki BED 2.15 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: tarix elmləri doktoru, professor
_______________ **Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya Şurasının
elmi katibi: pedaqogika elmləri doktoru, dosent
_______________ **Şərafət Aram qızı Baxışova**

Elmi seminarın sədri: pedaqoji elmlər doktoru, professor
_______________ **Fərrux Abbas oğlu Rüstəmov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** “Bilik əsri”, “İnformasiya əsri” kimi səciyyələndirilən müasir dövrdə elm və texnikanın sürətlə inkişafı, kompüter texnologiyalarının cəmiyyətin bütün sahələrində geniş yayılması və istifadə edilməsi, məlumata sürətli çıxış insan və cəmiyyətin inkişafı üçün həyati əhəmiyyət daşıyır. XXI əsrdə dünya iqtisadiyyatında müşahidə olunan inqilabi texnoloji dəyişikliklər şəraitində artıq real gücün fiziki gücdə deyil, tərbiyə edilmiş insan beynində olduğu, informasiya və kommunikasiya texnologiyalarının təhsildə geniş tətbiqindən, təbii sərvətlərin yüksək potensiala malik insan kapitalına çevrilməsindən keçdiyi heç kimdə şübhə doğurmur.

Dünyanın müasir inkişaf tendensiyası, COVID-19 virusunun 2020-ci ilin martından başlayaraq ölkəmizdə geniş yayılması, xüsusi karantin rejimi dövründə tədris müəssisələrinin bağlanması ilə əlaqədar yaranmış şəraitdə distant-onlayn təhsilin tətbiqi (04.03.20-22.05.20; 16.09.21-23.05.2022), onlayn dərslərin keçirilməsində Teams, Zoom, WhatsApp və s. proqramlardan istifadə edilməklə distant təhsilə keçid prosesinin təmin olunması, tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunma forması, müəllim və şagirdlərin (tələbələrin) bir-biriləri ilə məsafədən qarşılıqlı əlaqəsi, cəmiyyət həyatında gedən köklü dəyişikliklər, məktəblərdə istifadə olunan tədris resursları arasındakı əlaqələrin məna və məzmununda, prinsip və metodlarında yaranan yeniliklər və sürətlə inkişaf edən elmi-texniki tərəqqi təhsil sisteminin, xüsusilə ümumtəhsil məktəblərindəki tədris resurslarının bütünlüklə yenilənməsi, texnoloji avadanlıqlardan təhsil sistemində geniş istifadə edilməsi müasir tələblərə cavab verən mexanizmlərin hazırlanması zərurətini yaratmışdır.

Müasir dövrdə respublikamızda təhsilin inkişafı və keyfiyyət göstəricilərinin yüksəldilməsi məqsədi ilə ölkədə fəaliyyət göstərən müxtəlif göstəricili və kateqoriyalı məktəblər üçün zəruri tədris

resursları araşdırılıb tapılmalı, onlardan optimal istifadənin mexanizmi yaradılmalıdır. Daha dəqiq desək, təhsil sistemi hərtərəfli modernləşdirilməli, bu istiqamətdə bütün təsir imkanları üzə çıxarılmalıdır.

Eyni zamanda tədris resurslarından istifadənin pedaqoji, psixoloji və fizioloji elmi əsaslarının işlənməsi də, aktual problem kimi qarşıda durur. Bu baxımdan ümumtəhsil məktəblərində şagirdlərin yaş, fizioloji, psixoloji, fərdi xüsusiyyətləri və potensial imkanları nəzərə alınmaqla, müasir tədris resurslarından istifadə təhsil sisteminin ən aktual problemi kimi qiymətləndirilməlidir.

Bu sahədə inkişafın təmin edilməsi üçün təhsil sisteminin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi, ümumtəhsil məktəblərin müasir texnoloji avadanlıqlar, tədris resursları ilə təchizi, bütün təhsil pillələri üçün innovativ təlim metodologiyasının və müvafiq resursların yaradılması, yeni innovativ, interaktiv öyrənmə metodların tətbiqi, informasiya və kommunikasiya texnologiyaları üzrə modul təhsil komponentlərinin hazırlanması, yeni kurikulumlara və informasiya-kommunikasiya texnologiyalarına əsaslanan metodik vəsaitlərin, didaktik materialların, təlim vasitələrinin hazırlanması, analitik təhlili və proqnozlaşdırılması problemləri üzrə görüləcək işlərin səmərəliliyi artırılmalıdır.

Təsadüfi deyildir ki, son dövrlərdə Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş təhsil hüququnun təmin edilməsi sahəsində dövlət siyasətinin əsas prinsiplərini və təhsil fəaliyyətinin tənzimlənməsinin ümumi şərtlərini müəyyən edən, təhsilin ayrı-ayrı pillələri üzrə müvafiq qanunlar, digər normativ hüquqi aktlarda müasir tədris resurslarından istifadəyə yeni yanaşma formaları və onların əhəmiyyəti aydın şəkildə ifadə olunmuş, müasir tədris resurslarının infrastrukturunun və əsaslı təlim metodologiyasının yaradılması üzrə dövlət siyasətinin əsas prinsipləri nəzərə çatdırılmışdır.

Müasir tədris resurslarından ümumtəhsil məktəblərində daha geniş istifadə, yüksək sürətli internet bağlantılarının təmin edilməsi, məktəblərdə çalışan kadrların müvafiq bilik və bacarıqlarının artırılması üçün silsilə tədbirlər həyata keçirilir ki, onun da biri 2009-cu

ildən reallaşdırılmasına başlanmış “Elektron məktəb” pilot layihəsidir.

Bu baxımdan müasir şəraitdə təhsilin məzmunu, təlimin metod və vasitələri ilə yanaşı, tədris resurslarından istifadə amili də, təhsilin ayrılmaz hissəsi olub, prioritet istiqamətlərdən, aktual məsələlərdən biridir.

Lakin istər keçmişdə, istərsə də hazırda Respublikamızda bu istiqamətdə həm pedaqoji-metodik, həm də sırf didaktik baxımdan eləcə də, ümumtəhsil məktəblərinin müasir tədris resursları ilə təchizatı və onlardan səmərəli istifadə edilməsi baxımdan bir sıra problemlər mövcud olmuşdur.

Qeyd etmək lazımdır ki, ümumtəhsil məktəblərində tədris resurslarından təlim prosesində istifadə edilməsi məsələsi bir problem kimi fundamental tədqiqata cəlb edilməmiş, araşdırmalar aparılmamış, didaktikada tədris resurslarına (əyani vasitələrə) əsasən həyatla əlaqəsi istiqamətində baxılmış, onun rolunu hərtərəfli tədqiq etmək diqqətdən yayınmışdır. Məhz bu üzdən İ.İ. Pidkasisti, L.V.Zankov və digər pedaqoqlar tədris resurslarını şagirdlərin idrak fəallığı üçün səmərəli vasitə saymamışlar.

D.P.Elyi “Audio visual Materials in Teaching”, W.H.Bristow & J.L.Simonun ”Resource centers”, W.H.Allen “Audio visual materials”, A.M.Martin & C.W.Stonenin “A study of regional instructional media resources”, E.P.Godfrey “The state of Audiovisual technology: 1961-1966 (Monograph no.3)”, C.Vesley Merierhenri “A Brief History of Educational Technology, in Educational Media Year book”, H.H.Aksoyun “Eğitim kurumlarında teknoloji kullanımı ve etkilerine ilişkin bir cözümleme”, C.Alkanın “Eğitim Teknolojisi: Kuramlar, Yöntemler”, M.A.Данилов və M.N.Sкаткin “Некоторые проблемы современной дидактики” adlı və digər oxşar əsərlərdə tədris resurslarından istifadənin aktual məsələləri tədqiq edilmişdir.

Bundan başqa, professorlar M.Ə.Muradxanov və başqaları ilə birgə müəllif olduqları “Pedaqogika”, A.N.Abbasov və H.Ə.Əlizadənin “Pedaqogika”, F.N.İbrahimov və R.L.Hüseynzadənin “Pedaqo-

gika", Ə.X.Paşayev və F.A.Rüstəmovun "Pedaqogika", H.H.Əhmədov və N.E.Zeynalovanın "Pedaqogika", həmçinin C.Ə.Feyziyev və F.N.İbrahimovun müəllif olduqları "Didaktika" və s. kitablarda qabaqcıl təcrübə nəzərdən keçirilərək problem təhlilə cəlb edilmiş, sinif mühitində tədris prosesində müəllimin istifadə etdiyi köməkçi vasitələrdən bəhs edilərkən göstərilir ki, əyani vəsaitlər, tədris resursları sistemli, elmi və ardıcıl tətbiq edildikdə təhsilin ayrılmaz bir hissəsinə çevrilir.

Həyat özü bu gün müasir tədris resurslarından istifadə metodlarının inkişaf etdirilməsi və təkmilləşdirilməsi problemini qarşıya qoymuşdur.

Təqdim edilən dissertasiya mövzusunun aktuallığı da ilk növbədə buradan irəli gəlir. Bu tədqiqat işi həm problemin həll edilməsi, həm də gələcək tədqiqatlara istiqamət baxımından aktualdır. Təhsil sahəsində ciddi dəyişikliklərin aparıldığı, məktəblərin müasir tədris resursları ilə təchizatı və onlardan təlim prosesində istifadəsində bəzi obyektiv çətinliklərin mövcudluğu, bu çətinliklərin aradan qaldırılması zəruriliyi baxımından tədqiqat xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda bu məsələlərin elmi tədqiqata cəlb edilməsi, müəyyən tövsiyələrin işlənib, hazırlanması mühüm nəzəri və praktik aktuallıq kəsb edir.

Problemin aktuallığını nəzərə alaraq, dissertasiya mövzusu aşağıdakı şəkildə müəyyənləşdirildi: "Ümumtəhsil məktəblərində tədris resurslarından istifadənin elmi-pedaqoji əsasları".

**Tədqiqatın obyekti** ümumtəhsil məktəblərində müasir tədris resurslarından istifadə olunması üzrə işin sistemidir.

**Tədqiqatın predmeti** ümumtəhsil məktəblərində tədris resurslarından istifadə sisteminin nəzəri əsasları və texnologiyalarıdır.

**Tədqiqatın məqsədi** ümumtəhsil məktəblərində müasir tədris resurslarından istifadə üzrə işin sistemini yaratmaqdan ibarətdir.

**Tədqiqatın vəzifələri.** Tədqiqatın məqsədinə və işçi fərziyyəsinə, obyektinə və predmetinə əsasən aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir: təlim mühitində tədris resurslarından istifadə işində

ümumtəhsil məktəblərində müəllimin fəaliyyətinin nəzəri məsələlərinə aydınlıq gətirmək; tədris resurslarından istifadə üzrə işin ümumi məsələlərini araşdırmaq; tədris resurslarından istifadə üzrə işin didaktik, psixoloji, fizioloji əsaslarını diqqət mərkəzinə gətirmək; tədris resurslarından istifadə üzrə işin didaktik, psixoloji, fizioloji məsələlərini aydınlaşdırmaq; mövcud ədəbiyyatın təhlilini aparmaq; tədris resurslarının təsnifatı üzrə optimal tətbiqi mexanizmi işləmək; tədris resurslarının hazırlanma, seçilmə və tətbiqi prinsiplərini müəyyənləşdirmək; tədris resurslarının planlaşdırılmasının prinsiplərini hazırlamaq; təlim prosendə tədris resurslarından istifadə işinə təlimin səmərəlilik göstəricilərini yüksəldən amil kimi nəzərdən keçirmək; təhsilalanların öyrənməsinə tədris resurslarından istifadənin keyfiyyət meyarı kimi baxmaq; müəllimin şəxsi və peşə keyfiyyətlərinin təlim mühitinin mənəvi-psixoloji atmosferini tənzimləyən və tədris resurslarından istifadə işini yaxşılaşdıran amil olduğunu əsaslandırmaq; təlim zamanı tədris resurslarından istifadənin keyfiyyətini artırmağın yollarını müəyyənləşdirmək; eksperimentin təşkili, aparılması və nəticələri barədə ümumi təsəvvür yaratmaq.

**Tədqiqat metodları**. Tədqiqatın metodoloji əsasını varlığa didaktik yanaşma, pedaqoji fakt, hadisə və proseslərin dərk olunması və ümumiləşdirilməsi məqsədilə tətbiq olunan nəzəri müddəaların, metod və vasitələrin məcmusu təşkil edir.

Araşdırmalar zamanı aşağıdakı tədqiqat metodlarından istifadə olunmuşdur:

1.Nəzəri təhlil;

2. Sosioloji metodlar (anketləşdirmə, intervü, yazılı sorğular);

3. Analitik diaqnostika (müxtəlif fənlər üzrə göstəricilərin formalaşdırılması və inkişafının müqayisəsi);

4. Modelləşdirmə: sənədlərin öyrənilməsi və sistemləşdirilməsi;

5. Riyazi statistika;

6. Pedaqoji müşahidə;

7.Pedaqoji müsahibə;

8. Pedaqoji eksperiment.

**Müdafiəyə təqdim edilən əsas müddəalar**:

1. Tədris resurslarından istifadə olunması təhsilin, təlim prosesinin üzvi tərkib hissəsidir. Müasir tədris resurslarından ayrı-ayrı fənn müəllimləri ilə yanaşı ümumtəhsil müəssisəsinin rəhbərliyi, ümumi pedaqoji-müəllim heyəti də istifadə edir.

2. Müasir tədris resurslarından istifadənin səmərəliliyi tədris resurslarının infrastrukturundan, tədris mühitinin fiziki təchizatından, mənəvi və psixoloji atmosferindən, müəllim-təhsilalan münasibətlərinin qurulması səviyyəsindən, müəllimlərin nəzəri, metodik səviyyəsindən, peşə səriştəliliyindən, pedaqoji ustalığının dərəcəsindən xeyli dərəcədə asılıdır.

3. Müasir tədris resurslarından istifadə olunmasının səmərəliliyi eyni zamanda, təhsilalanların təlimə, tədris prosesinə, fənn və öyrənilən mövzulara münasibətindən xeyli dərəcədə asılıdır.

4. Müasir tədris resurslarından istifadə olunmasının səmərəliliyi həmçinin, müvafiq tədris resurslarının seçilməsindən, məzmunundan, təhsilalanların yaş və fərdi xüsusiyyətlərinə, bilik səviyyəsinə uyğunluğundan xeyli dərəcədə asılıdır.

5. Pedaqoji-müəllim heyətinin tədris resurslarından istifadə səriştəsi və bu işə hazırlıq dərəcəsi sinif mühitində və dərskənar tədris resurslarından istifadənin səmərəliliyini şərtləndirir.

6. Tədris resurslarından istifadə o zaman yüksək göstəricilərlə müşayiət edilir ki, bu prosesə rəhbərliyi təhsil müəssisəsinin ümumi pedaqoji rəhbərliyi həyata keçirsin, bu fəaliyyət, fəaliyyətin nəticələri müəssisənin pedaqoji şurasında müzakirəsi keçirilərək, qiymətləndirilsin.

**Tədqiqatın elmi yeniliyi.** Ümumtəhsil müəssisələrində tədris resurslarından istifadə olunması üzrə işin sistemi yaradılmışdır.

Dissertasiyada tədris resurslarından istifadə olunması sahəsində müəllim, təhsilalan və tədris resurslarının qarşılıqlı fəaliyyətinin mürəkkəb dialektikası, bu istiqamətdə yürüdülən təhsil siyasətinin, xüsusilə informasiya və kommunikasiya texnologiyalarının ölkənin təhsil sisteminə geniş tətbiq edilməsi siyasətinin mahiyyəti və məzmunu,

ümumtəhsil məktəblərində tədris resurslarından istifadənin və müəllimінin fəaliyyətinin nəzəri məsələləri, o cümlədən tədris resurslarından istifadə olunması üzrə işin didaktik, psixoloji və fizioloji əsasları üzərində dayanılır; tədris resurslarından istifayə təlimin səmərəlilik göstəricisi, təhsilalanların öyrənməsi işinə tədris resurslarından istifadənin keyfiyyət meyarı kimi yanaşılır; müəllimin şəxsi və peşə keyfiyyətləri təlim mühitinin mənəvi və psixoloji atmosferini tənzimləyən və tədris resurslarından istifadəni yaxşılaşdıran amil kimi diqqət mərkəzinə gətirilir; təlim zamanı tədris resurslarından istifadə xüsusiyyətləri, planlaşdırılması, hazırlanması, seçilməsi və səmərəli istifadə yolları, müasir tədris avadanlıqları və resursların (İKT) iqtisadi cəhətdən sərfəli olması mühüm bir problem kimi tədqiq olunur və araşdırılır.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Tədqiqatda irəli sürülən elmi qənaətlər pedaqogika nəzəriyyəsini yeni ideyalarla zənginləşdirəcək, müasir tədris resurslarından istifadəyə imkan və şəraitin yaradılması üçün səciyyəvi sayıla biləcək zəruri bilik, bacarıq və qabiliyyətlərin formalaşdırılması işinin elmi əsaslar üzərində qurulmasını təmin edəcəkdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatda irəli sürülmüş əsas elmi ideyalar və təkliflər, müsbət təcrübə, problemlə bağlı iş sistemi, tədqiqatın nəticələri tədris resurslarından istifadə üzrə məqsədyönlü, sistemli və planauyğun işləri aparmaqda ümumtəhsil müəssisələrinin pedaqoji kollektivlərinə, müəllim heyətinə, bütün təhsil işçiləri, eləcə də bakalavrlar, magistrlər, problemlə maraqlanan hər kəsə kömək göstərəcəkdir.

**Tədqiqatın aprobasiyası.**. Təklif edilən iş sistemi Azərbaycanın Şimal, Cənub, Şərq, Qərb coğrafi bölgələrini əhatə edən Lənkəran və Gəncə şəhərləri, Qəbələ, Oğuz və Quba rayonlarının, həmçinin Bakı şəhəri 82 saylı məktəblərində tətbiq edilmişdir. Dissertasiya müəllifi əsərdə nəzərdən keçirilən problemlə bağlı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda respublika ərazisində 27 və xarici ölkələrdə 11

məqalə çap etdirmiş, monoqrafiyanın, bir metodik göstərişin nəşrinə nail olmuşdur. İddiaçı eyni zamanda 9 beynəlxalq və respublika elmi konfranslarında məruzələrlə çıxış etmiş, məruzələrin mətnləri nəşr olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin nəzəriyyəsi və tarixi şöbəsi.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, 12 paraqraf əhatə edən 4 fəsil, nəticə və təkliflərdən, ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir. Giriş – 18231 işarə, 10 səhifə; I fəsil – 116787 işarə, 74 səhifə; II fəsil – 132756 işarə, 71 səhifə; III fəsil – 112064 işarə, 61 səhifə; IV fəsil – 47062 işarə, 36 səhifə; nəticə və təkliflər – 13083 işarə, 7 səhifə; istifadə edilmiş ədəbiyyat siyahısı – 25 səhifə, əlavələr 14 səhifə olmaqla dissertasiya işi ümumilikdə 439983 işarə, 300 səhifədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** problemin aktuallığı əsaslandırılmış, işlənmə səviyyəsi, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, fərziyyəsi, tədqiqat metodları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar öz əksini tapmışdır.

I fəsli "Ümumtəhsil məktəblərində tədris resurslarından istifadənin ümumi məsələləri" adlanır. Bu fəsil dörd paraqrafdan ibarətdir. Fəslin birinci paraqrafında"Tədris resursları" anlayışının mahiyyəti və məzmunu" nəzərdən keçirilir. İlk növbədə tədqiqat problemi ilə sıx bağlı olan "Tədris resursları" anlayışına aydınlıq gətirilir. Bu məqsədlə "Azərbaycan dilinin izahlı lüğəti"nə və digər mənbələrə müraciət olunur. Cəmiyyətin inkişafının müxtəlif mərhələlərində onun əhəmiyyəti, mahiyyəti, müasir məzmunu ilə bağlı məsələlər araşdırılır, vahid müstəvidə şərh olunur.

Hələ XX əsrin 50-ci illərində V.H.Bristo, L.Y.Simonun "Resurs mərkəzləri", V.H.Allenin "Audio-vizual resurslar", E.Deylinin "Audio vizual tədris resursları" kimi əsərlərdə sinif mühitində tədris prosesində müəllimin istifadə etdiyi köməkçi vasitələrdən bəhs edilərkən "tədris resursları" anlayışından istifadə edilmişdir.

1960-cı illərdə A.A.Lumsdeynin "Tədris resurslarının tətbiqinə aid təlimat", F.E.Almstead, R.V.Qrafın "Audio vizual resursların təlimatında çatışmayan komponentlər", E.P.Godfreyin "1961-1966-ci illər: audio vizual texnologiyanın vəziyyəti", J.Q.Knovltonun "Audio vizual resurslara konseptual yanaşma" adlı tədqiqatlarda tədris prosesində müəllimin istifadə etdiyi köməkçi vasitələrdən bəhs edilərkən "tədris resursları" anlayışı ilə yanaşı "təhsil texnologiyası", "tədris texnologiyası", "pedaqoji texnologiya" anlayışlarından istifadə edilmişdir.

1970-ci illərdə pedaqoji ədəbiyyatda kütləvi şəkildə istifadə olunan "tədris texnologiyası" tərifi 1980-1990-ci illərdə də qüvvədə olmuş, "proses" anlayışı ilə bərabər, "audio vizual resurslar", "audio vizual texnologiya" terminlərindən də istifadə olunmuşdur.

Onu da qeyd edək ki, "informasiya resursları", "tədris resursları" anlayışı informasiya cəmiyyətinin formalaşmağa başlaması ilə əlaqədar XX əsrin 80-ci illərindən başlayaraq günümüzə qədər pedaqoji ədəbiyyatda "tədris texnologiyası", "pedaqoji texnologiya" anlayışı ilə bərabər istifadə edilir.

Bu günə qədər bəzi ortaq anlayışlardan istifadə edilməsi ilə yanaşı, sahənin adı və tərifi hələ də, mübahisə obyektidir. Bu istiqamətdə verilən adlar, anlayışlar zaman keçdikcə illər ərzində dəyişmiş, inkişaf etmişdir.

"Tədris resursları" anlayışı haqqında danışmazdan əvvəl ilk növbədə bu ifadədə olan "tədris" və "resurs" sözlərinin, həmçinin "texnologiya" ifadəsinin semantik baxımdan mənalarına ayrı-ayrılıqda diqqət edək. "Azərbaycan dilinin izahlı lüğət"ində (IV cild, səh.287) "tədris" sözü "dərs vermə", "dərs oxuma", "təhsil alma", "dərs keçmə" kimi təsvir edilmişdir. Burada "tədris" sözü" bilik ver-

mək" mənasında işlənir. Bu vəziyyətdə "tədris" sözü "öyrətmə", "öyrənmə" prosesi olaraq təsvir edilən bir anlayış kimi qəbul edilə bilər.

Tədris prosesində texniki vasitələrdən istifadə zəminində əvvəlcə "təlim texnologiyası" anlayışı yaranmış, bu yanaşma getdikcə pedaqogikaya "pedaqoji texnologiya" anlayışı kimi daxil olmuşdur.

"Texnologiya" sözü yunan mənşəli olub, techne" (bacarıq) və "logos" (öyrənmə) mənasını verir. "Texnologiya" ("technologia") sözü məhsulun hazırlanması bacarığı, istehsal proseslərinin yerinə yetirilməsi üçün üsul və vasitələr haqqında biliklər toplusu mənasını ifadə edir.

"Texnologiya" elmin praktik tətbiqi və onun istehsalat sahəsində istifadə üsullarıdır.

"Təlim texnologiyası" müxtəlif, hər hansı bir bilik və ya məlumatı vermək üçün sənət və sənətlərə sistematik yanaşma" mənasını verir.

Hazırda təhsilin hər mərhələsində yazı lövhəsindən kitaba, proyektordan kompüterə qədər bir çox texnoloji məhsullardan istifadə edilir. Texnoloji məhsullar olan tədris avadanlıqları və resurslar adətən tədris prosesində hər hansı bir mövzunun izahını asanlaşdırmaq üçün müəllim tərəfindən köməkçi vasitə kimi istifadə olunur. Deməк, tədris texnologiyası təlim-tədris prosesində istifadə edilən hər cür öyrətmə və öyrənməyə köməkçi vasitələrə, resurslara deyilir.

İndi də "resurs" sözünün etimologiyasına diqqət edək. "Rus dilinin izahlı lüğətləri"ndə, həmçinin Amerika və Böyük Britaniya izahlı lüğətlərində "resurs" sözünün lüğəti mənası belə izah olunur: "resurs" XVII əsrin əvvəllərində fransız dialektində olan "ressourse", "resourdre", resource, risɔrs, "re sors) sözündən götürülüb "mənbə", "ehtiyat", "yardımçı vasitə", "yenidən artırılma", "bərpa" mənasını verir. İsim kimi ifadə olunur.

Mənbələrdə resurs sözünün məzmunu, mahiyyəti ilə bağlı fikirləri aşağıdakı kimi qruplaşdırmaq olar.

Resurs: ehtiyat və vəsaitlərin mənbəyidir; təchizat, dəstək və ya yardım lazım olduqda istifadə və kömək edə biləcək hər hansı bir

şeyin mənbələrini, ehtiyatlarını ifadə edir. Hər hansı bir fəaliyyətin yerinə yetirilməsində, yaxud vacib problemlərin və çətinliklərin aradan qaldırılmasında istifadə ediləcək köməkçi vasitə rolunu oynayan mənbələr, ehtiyatlar bazasıdır; tədris prosesində istifadə olunan hər hansı bir köməkçi vasitə, mənbələrdir və s.

Tədris resursları məqsəd, məzmun və metodlardan ibarət bir sistem təşkil edib, çoxlu öyrənmə mühiti təmin edir: a) oxumaqla; b) eşitməklə; c) görməklə; ç) həm görmək, həm eşitməklə; e) şərh etməklə; ə) yaratmaq və ifadə etməklə; eyni anda görmə, eşitmə və toxunma hissiyyatına müraciət edərək, birdən çox duyğu orqanını hərəkətə gətirir. Bununla da, yüksək səviyyədə əlverişli öyrənmə mühiti yaranır.

Tədris prosesində nə qədər çox duyğu orqanına müraciət olunarsa, öyrənmə daha maraqlı, daha səmərəli olub, öyrənilənlər gec unudulur; məlumatların vizual resurslar yoluyla təqdim edilməsi şagirdlərin diqqətlərini çəkir, maraq oyadır, motivasiya yaradaraq, dərsi zövq halına gətirir, qavramanı və xatırlamağı asanlaşdırır; mücərrəd, mürəkkəb anlayışlar, əşyalar, proses və hadisələri sadələşdirir, konkretləşdirir; vaxta qənaəti təmin edir; təhsilalanların fərdi ehtiyaclarını (fərdi xüsusiyyətləri, bacarıqları, səviyyə fərqləri) təmin edir; etibarlı müşahidə etmək imkanı təmin edir; sinfə gətirilməsi qeyri-mümkün olan cisim, fakt, hadisə və əməliyyatların asanca və etibarlı şəkildə müşahidə edilməsini və araşdırılmasını təmin edir; müxtəlif vaxtlarda bir-biri ilə əlaqəli məzmunun təqdim olunmasını təmin edir; təkrar istifadəetmə imkanı yaradır və s.

Qeyd olunduğu kimi, hazırda tədris resursları daha böyük xüsusiyyətdə elmi məlumat və texnikanı ehtiva edən məhsullardır. Başqa sözlə, tədris resursları elmi qanun və yeniliklərin təhsil problemlərinin həllinə istiqamətli olaraq tətbiq olunmasıdır. Yəni, tədris resursları elmin bir tətbiqidir. Kompüterlər, “Ağıllı” lövhələr, proyektorlar və digər oxşar tədris avadanlıqları elmin tətbiq olunması nəticəsində ortaya çıxan resurslar olaraq görmək mümkündür.

“Tədris resurslarının inkişaf tarixi” adlanan ikinci paraqrafda dünya təcrübəsində tədris resursları və avadanlıqlarından istifadənin inkişaf tarixi nəzərdən keçirilir və əsas təhsil komponenti kimi əhəmiyyətindən danışılır.

Pedaqogikanın çox əhəmiyyətli vəzifələrindən biri təhsil sistemində istifadə olunan tədris resurslarının (o cümlədən tədris avadanlıqlarının) inkişaf tarixini araşdırmaq, onu təkmilləşdirmək, müasir tələblər baxımından təkliflər verməkdən ibarətdir.

Təlim-tədris prosesləri, praktikada tətbiqetmə ilə bağlı bilik, bacarıq, vərdiş və fəaliyyətlərin fərdlərə qazandırılmasını təmin edəcək tədris resurslarının həm fiziki təchizat, həm də nəzəri cəhətdən inkişaf istiqamətində hər dövrün özünə məxsus fəlsəfi yanaşmaları olmuşdur. Bu inkişafda nəzəri sahə həmişə öndə olmuşdur. Məhz əsrlər boyu bu fəlsəfi baxışlar mövcud təlim-tədris metodlarını inkişaf etdirmək üçün yeni öyrənmə və təlim metodlarının, nəzəriyyələrinin inkişafını təmin etmişdir.

Tədris avadanlıqları və resursları sahəsindəki tarixi inkişafla bağlı ayrı-ayrı müəlliflər (E.Deyl, C.Ö.Alkan, G.L.Vilkinson, C.V.Meierhenri, R.A.Reiser, P.Saettler, L.Cuban və digərləri) tərəfindən verilmiş təsnifatlar aşağıdakı şəkildə ümumiləşdirilmişdir.

I Dövr: Şifahi və yazılı dövr.

Xarakterik xüsusiyyətlər:Odun kəşfi; ilk təhsil qanunlarının formalaşması:sofistlər, Platon, Sokrat.

İxtiralar, kəşflər: Papirusun kəşfi (e. ə. 4-cü minillik); finikiyalılar tərəfindən ilk əlifbanın icadı

(e. ə. I minillik); İlk pedaqoqların və universitetlərin açılması.

Zaman ardıcıllığı: 1500-cü illərə qədər.

II Dövr: Görüntülü, səsli avadanlıqlar dövrü.

Xarakterik xüsusiyyətlər: Audio vizual avadanlıqlar və sairin təhsildə istifadə edilməyə başlanması, proqramlı təhsil.

İxtiralar, kəşflər: İlk slayd proyektorunun kəşfi (1646); müasir kitabxanaların yaranması (1651); ilk hesablama cihazlarının istehsalı

(1820); teleqrafdan istifadə (1844); ilk mexaniki kompüterin yaranması (1836 ); radionun kəşfi.

Zaman ardıcıllığı: 1500-1900-cü illər arası .

III Dövr: İkili xüsusiyyət (Fərdi təhsil və ictimai təhsil).

Xarakterik xüsusiyyətlər: Kompüter təhsili və internetdən istifadə mühitinin formalaşması və inkişafı .

İxtiralar, kəşflər: UNİX, ARPANET (1969); HTTP və Skaner; ilk kabelsiz telefon (1981); Microsoft ilk İBM PC və Macintoch (1981); CD-ROM prosesləri (1984); PDA – Personal Digital Asistant (200), SMS, MC; Windows (1984).

Zaman ardıcıllığı: 1900-1990-cı illər.

IV Dövr: Elektron dövr.

Xarakterik xüsusiyyətlər: Elektron-virtual təhsil mühitinin formalaşması.

İxtiralar, kəşflər: Elektron siniflər (2010); e-mail, elektron məktəb; tam elektron evlər (2014) digital-elektron qəzetlər, multmedia, distant–uzaqdan təlimin normal təhsil kimi qəbul olunması.

Zaman ardıcıllığı: XXI əsr.

V Dövr: Sibernetik (Sibernasyon) dövrü.

Xarakterik xüsusiyyətlər: Təhsilin kökündən dəyişməsi.

İxtiralar, kəşflər: Klavyatura və mousenin tarixi keçmişə qovuşması; fiber plastik ardıcıllıq; real elektron kitablar; ilk virtual sinif; kitab çapının qadağan olunması; holeqrafik təhsil texnologiyaları və onun məktəblərə tətbiqi.

Qeyd 1. Sibernetika (Sibernasyon) yunan sözü olub, "idarə etmə sənəti” mənasını verən kibernetikadan yaranmışdır. Bir insanın və ya avtomatik bir cihazın, müasir texnikanın resursları çərçivəsində hər hansı bir işi idarə etməsini və ya müəyyən bir məqsədə çatmasını təmin edən elmdir.

2. Holoqrafi - lazer şüalarına əsaslanaraq reallaşdırılan üç ölçülü görünüş əməliyyatına verilən addır. Holoqrafi cisimlərdən gələn dalğalardakı məlumatları müəyyən bir şəkildə yığıb, bu məlumatda heç bir itki olmadan təkrar ortaya çıxarmağı təmin edən bir texnikadır.

Zaman ardıcıllığı: Gələcək təhsil.

Tədris texnologiyaları sahəsində ən böyük irəliləyişlər XIX əsrin kəşflərindən olan elektrikin kəşfi ilə bağlıdır. Elektrik lampası, telefon, teleqraf, radio, televiziya, video, maqnitofon, yazı cihazı və digər oxşar avadanlıqlar təhsil sahəsinə daxil olmuşdur. Elektrikdən istifadə edilməyə başlanması ilə yaranan məhsullar yeni tədris texnologiyalarının, tədris resurslarının başlanğıc nöqtəsi olmuşdur.

XX əsr: 1900-1913-cü illərə aiddir: Məktəb muzeyləri hərəkatı: məktəblər üçün sərgilər, üç ölçülü ekran (stereograph) görüntüləri, filmlər, şəkillər, qrafiklər kimi resurslar. Qeyd: bu dövrdə müəllimlər tərəfindən dərs kitabları əsas, digər tədris resursları köməkçi vasitələr kimi qəbul edilirdi.

1914-1930-cü illər: vizual təhsil sahəsində milli qurumların yaradılmasında ilk addımların atılması. 1910-cu ildə ABŞ-da ilk tədris filmləri kataloqunun dərc olunması; audiovizual tədris resurslar hərəkatı. Tomas Edisonun tədris filmlərinin yaradılmasına verdiyi töhfə. Resursların tədris planında əks olunması. Hədəflər və şəxsiyyətyönlü təhsil; məktəb muzeyləri, kino-filmlər, rəsmlər, fotoşəkillərdən tədris prosesində istifadə edilməsi (1920-ci illər).

Bu dövrdə "vizual resurs" və "əyani tədris vasitələri" terminlərdən istifadə olunurdu. Tomas Edison 1922-ci ildə tədris filmlərinin təhsil sahəsində inqilab təsiri yaradacağını iddia edirdi. Təəssüf ki, sonralar bu ifadə özünü doğrultmadı.

1940-1950-ci illərə aiddir. Tədris avadanlıqları və resursların "qızıl dövrü" XX sərin 40-cı illəri (II Dünya müharibəsi dövrü) hesab edilir. Orduda dəyişik və yeni silahların əsgərlərə tanıdılmasında sürətli təhsilvermə ehtiyacı film, slayd, fotoşəkil və bunlarla əlaqədar avadanlıqlardan istifadə edilməsi zərurəti yaratmışdır. Bu hərəkət mülki sahəyə də yayılmış, təhsildə tədris avadanlıqları və resursların istifadəsinə maraq göstərən bir sahənin inkişafına şərait yaratmış, texnoloji cihazların təhsildə kütləvi istifadəsinə yol açmışdır.

1960-cı illər. Bu dövrə aiddir: televiziya vasitəsi ilə təhsil, təhsil məqsədli TV kanallarının yaradılması, maliyyə xərci az olan kompü-

terlərin dövriyyəyə girməsi. ABŞ-da kompüterlərin təhsildə tətbiq edilməsi ilə bağlı layihələrin inkişaf etdirilməsinə başlanması, kompüter dəstəkli tədris hərəkatı.

1970-ci illərə aiddir: tədris texnologiyası, tədris resursları terminologiyasında dəyişmə, videonun məktəblərdə-sinif şəraitində istifadə edilməyə başlanması, proqramlı təhsil; audio vizual tədris resursların əvəzinə, yeni texnoloji avadanlıqlar, resursların yaradılması və təhsil sistemində istifadə edilməsi; 1977-ci ildə ABŞ-da kompüterlərin təhsildə tətbiq edilməsi ilə bağlı layihənin – TİCCİT sisteminin tətbiq olunmasının İngiltərə, Fransa və Federal Almaniya və digər ölkələrə də təsir etməsi.

1980-ci illərdə kompüter hərəkatı dünyanın qabaqcıl ölkələrində geniş yayılmışdır.

1990-cı illərin səciyyəvi cəhətləri bunlardır: CD, CD-ROM, VCD, DVD, kompüter dəstəkli və əsaslı təhsil, internetin təhsildə istifadə edilməyə başlanması, multimedia, kompüterlər və internet, virtual qaynaqların təhsil sistemində tətbiqi; uzaqdan təlim, internet / Web əsaslı təlimin yayılması, kompüterdən ibarət xüsusi məktəb və ya sinif otaqlarının (laboratoriyaların) təşkilinə başlanması.

Kompüterləri asan əldə etmə, ucuz təhsil xidmətləri, təhsildə hər hansı mövzunun təqdim etmə metodu (prezentasiya), kompüter texnologiyasındakı irəliləyişlər bu yeni avadanlığın əsas xüsusiyyətləridir.

XXI əsrin xarakterik cəhətləri bunlardır: avtomatik / elektron - virtual təhsil mühitinin formalaşması, IPod-in təhsil sistemində tətbiqi (2001), multimedia təməlli təhsil sistemi (elektron qeyd dəftərləri, "ağıllı (smart) lövhə", elektron kitablar, fiber optik cədvəllər və s.), digital qəzetlər; elektron siniflərin təşkili (2010); e-mail, elektron məktəb; tam elektron evlərin təşkili (2014); uzaqdan (distant) təhsilin geniş yayılması və normal təhsil kimi qəbul olunması.

Beləliklə, təhsildə tədris resursları və avadanlıqlarından istifadənin mərhələləri ilə bağlı təhlili yekunlaşdırdıq. Hazırda müasir texnoloji məhsullar-tədris resursları təhsilin ayrılmaz bir parçası olaraq

qəbul edilir. Tədris resurslarının təhsilə, təhsilalanın inkişafına töhfəsi inkaredilməz bir həqiqətdir.

I fəslin üçüncü paraqrafı "Problemin təhsildəki yeri və əhəmiyyəti baxımından elmi ədəbiyyatın təhlili" adlanır. Bu paraqrafda problemlə bağlı mövcud xarici və yerli ədəbiyyat geniş təhlil edilmiş, nəzəri ümumiləşdirmələr aparılmış, elmi ədəbiyyatların problem baxımından əhəmiyyəti şərh edilmişdir. İnkişaf etmiş xarici ölkələrin iş təcrübəsindəki mütərəqqi cəhətlər, tədris resurslarının istifadəsi ilə bağlı qabaqcıl təcrübə öyrənilmiş və ümumiləşdirilmişdir.

Bu fəslin üçüncü paraqrafında ilk növbədə Ümumtəhsil məktəblərində tədris resurslarından istifadə hüquqi normalar müstəvisində araşdırılır. Ümumtəhsil məktəblərində tədris resurslarından tədris prosesində səmərəli istifadə məsələsi normativ-hüquqi aktlara: qərarlara, proqramlara, strategiyalara əsaslanmalıdır. Əks halda, yəni müəyyən qaydalar olmadan təlim prosesində tədris resurslarından istifadənin tənzim edilməsi mümkün deyildir. Respublikada bu istiqamətdə işi tənzimləmək üçün müstəqillik dövründən başlayaraq indiyədək, mühüm əhəmiyyətə malik müvafiq qaydalar işlənib-hazırlanmış, bir sıra qanunlar qəbul edilmiş, hüquqi normalar müəyyən olunmuşdur.

"Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının inkişafı üzrə Milli Strategiya (2003-2012-ci illər)", "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə Təminatı Proqramı (2005-2007-ci illər)", 2008-2012-ci illər üçün "Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya", "Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası", "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulum)" və digər oxşar hüquqi-normativ sənədlərdə ümumtəhsil müəssisələrində müasir tədris resurslarından istifadəyə yeni yanaşma formaları və onların əhəmiyyəti aydın şəkildə ifadə olunmuş, müasir tədris resurslarının infrastrukturunun və əsaslı təlim metodologi-

yasının yaradılması üzrə dövlət siyasətinin əsas prinsipləri nəzərə çatdırılmış, təhsil sisteminin müasir tədris resursları üzrə normativ bazasının yaradılması və inkişafı, elektron tədris resurslarının yaradılması, inkişafı və s. vəzifələrin yerinə yetirilməsini nəzərdə tutmuşdur.

Bu qanunlar təhsil sisteminin təkmilləşdirilməsi istiqamətində mövcud olan problemlərin tədricən həllinə və ölkədə bu sahənin sürətli inkişafına güclü təkan vermişdir.

İkinci fəslin üçüncü paraqrafında problem baxımından normativ-hüquqi aktlarla bağlı təhlildən sonra xarici və yerli elmi-pedaqoji ədəbiyyat geniş təhlil edilmiş, nəzəri ümumiləşdirmələr aparılmışdır.

Ankara Universitetinin professoru, doktor Cavat Alkanın "Təhsil Texnologiyası: Nəzəriyyələr və metodlar" adlı əsərində, Ankarada İldırım Bəyazid Universitetinin müəllimləri, doktor Bekir Gur, doktor Murat Özoğlu, Başer Tekinə məxsus "Məktəblərdə kompüter texnologiyalarının istifadəsi və qarşılaşılan problemlər" adlı tədqiqatda xüsusi vurğulanır ki, təhsil sahəsində olan yeniliklərin və görülən tədbirlərin ümumi çərçivəsi daxilində təhsil texnologiyasının yerini öyrənmək zəruridir. Öyrənmə-öyrətmə prosesində müəllim, tədris resursu və şagird üçü birlikdə ələ alınmalı, təhsil dövrün tələbinə uyğunlaşdırılmalıdır.

ABŞ-nın məşhur riyaziyyat müəllimləri-doktor Van de Vualle, Karen Karp S. və Cennifer Bay Villiamsın "İbtidai və orta məktəb riyaziyyatı: müəllimin inkişafı ilə bağlı" adlı kitabında ənənəvi tədrisdən fərqli olaraq, müasir dövrdə riyaziyyat fənninin tədrisinin xarakterik xüsusiyyətlərinə, həmçinin tədris prosesində müasir tədris resurslarından istifadəyə xüsusi yer verilmişdir. Burada yeni texnologiyalardan hərtərəfli səmərəli istifadə etməklə, tədris strategiyaları ilə tədris avadanlıqları və resursların inteqrasiya olunmasının yolları və konkret metodları göstərilmişdir.

Amerikalı pedaqoqlar, Florida Universitetinin müəllimləri Qlinda Günter, Randolf Günter və Gregory Wiensin hələ keçən əsrin 90-cı illərinin sonunda apardıqları birgə araşdırma ilə bağlı "Xidmətdən əvvəl təhsil texnologiyasını öyrətmək və innovasiyalı yanaşma" adlı doqquzuncu beynəlxalq Vaşinqton konfransındakı (1998-ci il) məru-

zədə müasir texnologiyaların təhsildə oynadığı rol və əhəmiyyətinə xüsusi diqqət edilmişdir.

D.Angelo, M.Jill, Voosley A.Şherrinin tədqiqatlarında müasir texnologiyaların, tədris resurslarının dərsin məzmununa inteqrasiya edilməsi, müəllimlərə peşə fəaliyyətinə başlamazdan əvvəl müasir tədris avadanlıqları və resurslardan istifadənin öyrədilməsi, internet, multimedia dəstəyi, elektron resurslar və s.-dən istifadə edilməsi kimi məsələlərin öz aktuallığını saxladığını və getdikcə əhəmiyyətinin artırını qeyd edirlər.

Böyük Britaniya, Oksford Universitetinin professoru, doktor Daniels Harri "Vıqotski və pedaqogika" əsərində xüsusi ilə vurğulamış ki, müəllim tədris resurslarından (eləcə də avadanlıqlardan) istifadə etməzdən əvvəl onu çox yaxşı tanımalı və istifadəsi ilə bağlı təcrübə qazanmalıdır.

Amerikalı pedaqoq, Stanvord Universitetinin professoru Lari Cuban, Amerikalı psixoloq, Harvard Universitetinin professoru Jon Şaster, David Hanvkraydın YUNESKO-nun xətti ilə Parisdə keçirilən Beynəlxalq konfransda (1982) "Təhsildə texnologiyanın tətbiqi vəziyyəti və perspektivlər" adlı məqaləsində qeyd olunur ki, sürətlə inkişaf edən müasir texnologiyalarla birlikdə tədris resursları və avadanlıqlarının yenilənməsi, günün tələblərinə cavab verə bilən vəziyyətə gətirilməsi olduqca vacibdir. Müasir tədris resursları və avadanlıqlarının tətbiqinə əsaslanan prosesdə qarşılaşılan böyük problemlərdən biri də, məktəbin tədris avadanlıqları və resurslarla təmin edilməsi məsələsidir.

Prof. A.M.Həsənov və prof. Ə.Ə.Ağayevin birgə müəllif olduqları "Pedaqogika" adlı dərslikdə təlimdə kompüter və oxşar avadanlıqlardan istifadə təlimin bir prinsipi kimi irəli sürülür və resurslardan-əyani vəsaitlərdən istifadənin üstünlükləri kimi şərh olunur.

Prof. A.O.Mehrabov, dos. Ə.M.Abbasov və b. ilə həmmüəllif olduqları "Pedaqoji texnologiyalar" adlı monoqrafiyada, prof. İ.H.Cəbrayılovun "Azərbaycan tarixinin tədrisi metodikası" adlı kitabında, habelə pedaqogika üzrə fəlsəfə doktoru N.İ.Məmmədo-

vanın "Ümumtəhsil məktəblərində tədris avadanlıqları və resurslardan istifadə imkanları" adlı metodik vəsaitdə (Bakı: Mütərcim, -2017, 220 s.) müasir tədris resurslarının təlim prosesində tətbiqi və əhəmiyyəti ilə bağlı məsələlər öz əksini tapmış, müasir tədris resursları, o cümlədən kompüter texnologiyasından istifadənin üstünlükləri haqqında ətraflı məlumat verilmişdir.

"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "İnternet. Azərbaycan İnternet Resursları" kitabında müasir tədris avadanlıqları və resurslarına (İKT əsaslı) əsaslanan metodikalardan istifadənin üstünlükləri barədə fikirləri də bu baxımdan maraq doğurur.

Tədqiqatçıların böyük əksəriyyətinə görə, müəllimlərin müvafiq istiqamətdə bilik və bacarıqlarının sistematik yüksəldilməsi, İKT bazası əsasında yeni təlim metodikasını tətbiq etməyin öyrənilməsi, resurslar bazasının yaradılması, tədris prosesində İKT-nin effektiv tətbiqi üçün məktəb rəhbərlərinin və müəllimlərin motivasiyasının artırılması, habelə məktəb infrastrukturunun təkmilləşdirilməsi və təchizatın həyata keçirilməsi günün vacib tələbidir.

Yuxarıda deyilənlərə yekun vuraraq, qeyd etmək lazımdır ki, qeyd edilən fikirlər, bir çox ölkələrin, o cümlədən Azərbaycan təhsil sistemində öz aktuallığını saxlamaqdadır.

I fəslin dördüncü paraqrafı "Ümumtəhsil məktəblərində tədris resurslarından istifadə vəziyyəti" adlanır. Bu paraqrafda ümumtəhsil məktəblərində tədris resuslarından istifadə vəziyyətindən bəhs olunur, tədris resuslarının gələcəyini xarakterizə edən diaqnostik təhlil aparılır. Bu paraqrafda pedaqoji prosesin əsas amili kimi müasir tədris resursları və avadanlıqlardan istifadənin ümumi məsələləri araşdırılır, başlıca üstünlüklər və çatışmazlıqlar, onları doğuran obyektiv və subyektiv səbəblər konkret müddəalarla ümumiləşdirilmiş və əsaslandırılmışdır.

Tədris prosesində tədris resurslarından istifadə ilə bağlı müəllimlərin baxışları. İlk növbədə müəllimlərin təlim fəaliyyətinin üzərində xüsusi olaraq dayanılmış, müəllimlərin metodik fəaliyyəti, tədris resurslarından istifadə işinin təşkili, məktəblərin tədris resursları və ava-

danlıqları ilə təçhizatı və digər məsələlər bəhs olunan problem baxımından araşdırılmış, müəllim və şagirdlərin müxtəlif istiqamətlərdəki fəaliyyətləri qiymətləndirilərək, istinad mənbəyinə çevrilmiş, müşahidə materialları sistemləşdirilmiş, təhlil edilmiş və şərh olunmuşdur.

Dissertasiyada ümumtəhsil məktəblərində tədris resurslarının düzgün istifadə olunmasına təlimin səmərəlilik göstəricisi kimi baxılır, müəllimin şəxsi və peşə keyfiyyətləri sinif mühitinin mənəvi və psixoloji atmosferini tənzimləyən, tədris resurslarından istifadəni yaxşılaşdıran amil kimi diqqət mərkəzinə gətirilir; təlim zamanı tədris resurslarından istifadə olunması həlli vacib bir problem kimi tədqiqata cəlb edilir, təhsilin səmərəlilik göstəricilərini yüksəldən vacib amil kimi nəzərdən keçirilir. Bu problemlərin tədqiqi zamanı ümumtəhsil məktəblərində tədris resurslarından istifadə sahəsində müəllimin iş sistemini formalaşdırmaq, şagirdlərin bilik, bacarıq və ümumi inkişaf səviyyəsinə təsirini araşdırmaq üçün pedaqoji eksperimentdən istifadə olunur.

Pedaqoji eksperimentin ilkin mərhələsində ümumtəhsil məktəb müəllimləri və şagirdlər kütləvi sorğuya cəlb edildilər. Söhbət və müsahibələr keçirildi, müşahidələr aparıldı. Başlıca məqsəd ondan ibarət idi ki, tədris resurslarından istifadə olunmasının təşkili səviyyəsini, müəllim-şagird münasibətlərinin necə qurulduğunu aşkara çıxaraq. Ayrı-ayrı məktəblər və fənlər üzrə tədris resurslarından istifadə müxtəlif formalarda təşkil olunan tədbirlər, müəllim və şagirdlərin fəaliyyəti, müəllim-şagird, şagird-şagird münasibətləri, təlim prosesində tədris resurslarından istifadə edilməsinin təşkili səviyyəsi müşahidə olundu. Problemlə bağlı vəziyyəti müəyyənləşdirmək üçün müəllimlər və şagirdlərlə sorğu aparıldı.

Eksperimental və kontrol qruplar müəyyən edildi. Bəzi qruplar eksperimental (I qrup), digərləri kontrol qruplar (II qrup) seçildi. Məqsədimiz eksperimental qrupların sinif mühitində tədris resurslarının müəllim tərəfindən səmərəli istifadə olunması və şagirdlərin inkişaf səviyyəsini aşkara çıxarmaq idi. Yeri gəldikcə eksperimental qrupların göstəriciləri kontrol qrupların (I və II qrupların) göstəriciləri ilə müqayisə edildi.

I (eksperimental) və II (kontrol) qruplar müəyyənləşdirilərkən həmin qrupların həm təhsilalanların, həm də qruplarda dərs aparan müəllimlərin səviyyəsinin təxminən bərabər olması diqqət mərkəzində dayandı.

Eksperimentin ilkin mərhələsində öyrənmək istədiyimiz məsələlərdən biri sinif mühitində tədris resurslarından lazımi səviyyədə istifadə edilməməsinin səbəbləri ilə bağlı idi.

Eksperimentin ilkin mərhələsində sinif mühitində müasir tədris resurslarından istifadə səviyyəsi öyrənildi.

Ümumtəhsil müəssisələrində sinif mühitində müasir tədris resurslarından istifadə edilməməsinin səbəbləri ilə bağlı dörd mümkün cavabı (tədris avadanlıqları və mövzuya uyğun resurs məktəbdə yoxdur, tədris resurslarından istifadə bacarığına malik deyiləm, şagirdlərin sayı və fiziki şəraitin olmaması ilə bağlı problem var, problem yoxdur) ilə bağlı anket sorğusunda iştirak edən 90 nəfər fənn müəlliminin (Azərbaycan dili və ədəbiyyat, ictimai fənlər, riyaziyyat və texniki fənlər) cavab göstəriciləri təhlil edilib, cədvəl 1.4.1.-də verilmişdir.

**Cədvəl 1.4.1**

**Sinif mühitində müasir tədris resurslarından istifadə edilməməsinin səbəbləri**

| Sual №- | Say | Fənn | Tədris avadanlıqları və mövzuya uyğun resurs məktəbdə yoxdur | | Tədris resurslarından istifadə bacarığına malik deyiləm | | Şagirdlərin sayı və fiziki şəraitin olmaması ilə bağlı problemlər var | | Problem yoxdur | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | n | % | n | % | n | % | n | % |
| Gerçək əşya və modeldən /maketdən istifadə | 30 | Azərb. dili və ədəb. | 16 | 53,33 | 0 | 0,00 | 4 | 13,33 | 10 | 33,00 |
| | 30 | İctimai fənlər | 13 | 43,33 | 0 | 0,00 | 4 | 13,33 | 13 | 43,00 |
| | 30 | Texniki fənlər | 5 | 16,67 | 0 | 0,00 | 5 | 16,67 | 20 | 66,67 |

**Cədvəl 1.4.1-in ardı**

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Vizual resursdan istifadə | 30 | Azərb. dili və ədəb. | 14 | 46,67% | 0 | 0,00% | 6 | 20,00% | 10 | 33,33% |
| | 30 | İctimai fənlər | 10 | 33,00 | 0 | 0,00 | 7 | 23,33 | 13 | 43,33 |
| | 30 | Texniki fənlər | 6 | 20,00 | 0 | 0,00 | 6 | 20,00 | 18 | 60,00 |
| Video, SD, DVD, slaydlardan istifadə | 30 | Azərb. dili və ədəb. | 5 | 16,67 | 2 | 6,67 | 6 | 20,00 | 17 | 56,67 |
| | 30 | İctimai fənlər | 8 | 26,67 | 2 | 6,67 | 6 | 20,00 | 14 | 46,67 |
| | 30 | Texniki fənlər | 9 | 30,0 | 0 | 0,0 | 4 | 13,33 | 17 | 56,67 |
| Kompüterdən istifadə | 30 | Azərb. dili və ədəb. | 10 | 33,33 | 2 | 6,67 | 3 | 10.00 | 15 | 50.00 |
| | 30 | İctimai fənlər | 5 | 16,67 | 3 | 10,00 | 8 | 26,67 | 14 | 46,67 |
| | 30 | Texniki fənlər | 5 | 16,67 | 0 | 0,00 | 8 | 26,67 | 17 | 56,67 |
| İnternetdən istifadə | 30 | Azərb. dili və ədəb. | 5 | 16,67% | 4 | 13,33% | 8 | 26,67 % | 13 | 43,33 % |
| | 30 | İctimai fənlər | 7 | 23,33 | 2 | 6,67 | 6 | 20,00 | 15 | 50,00 |
| | 30 | Texniki fənlər | 10 | 33,33 | 0 | 0,00 | 5 | 16,67 | 15 | 50,0 |
| Proyektorlardan istifadə | 30 | Azərb. dili və ədəb. | 9 | 30,00 | 4 | 13,33 | 3 | 10,00 | 14 | 46,67 |
| | 30 | İctimai fənlər | 7 | 23,33 | 3 | 10,00 | 5 | 16,67 | 15 | 50,00 |
| | 30 | Texniki fənlər | 7 | 23,33 | 0 | 0,00 | 6 | 20,00 | 17 | 56,00 |
| Dərsdə ağıllı (smart) lövhədən istifadə | 30 | Azərb. dili və ədəb. | 16 | 53,3 | 5 | 16,7 | 3 | 10,00 | 6 | 20,0 |
| | 30 | İctimai fənlər | 13 | 43,3 | 5 | 16,67 | 4 | 13,33 | 8 | 26,67 |
| | 30 | Texniki fənlər | 11 | 36,7 | 2 | 6,7 | 6 | 20,0 | 11 | 36,7 |

Müqayisəli təhlillər göstərir ki, fənn müəllimlərinin (Azərbaycan dili və ədəbiyyatı, ictimai fənlər, texniki fənlər üzrə) tədris prosesində elektron tədris resurslarından istifadə etməmələrinin səbəbləri müxtəlifdir. Məktəblərdə tədris resursları və avadanlıqlardan, xüsusən elektron avadanlıqlardan istifadə edilməməsinin səbəbləri arasında "Tədris avadanlığı və mövzuya uyğun resurs məktəbdə yoxdur", "Şagirdlərin sayı və fiziki şəraitin olmaması ilə bağlı problemlər var", "Tədris resurslarından istifadə bacarığına malik deyiləm" variantları üstünlük təşkil etmişdir.

İlkin mərhələdə öyrənmək istədiyimiz digər məsələ tədris resurslarının təchizatı ilə bağlı idi.

Tədris resurslarının təchizatı ilə bağlı anket sorğusunda iştirak edən 120 nəfər Azərbaycan dili və ədəbiyyat, ictimai fənlər, riyaziyyat da daxil olmaqla texniki fənlər, həmçinin xarici dillər üzrə fənn müəllimlərindən "Məktəbinizdə olan və dərsdə istifadə vəziyyəti yararlı olan tədris avadanlıqlarını və resurslarını işarə edin. Siyahıda olmayanları əlavə edin" sualı soruşulmuşdur.

Aparılmış sorğunun təhlilindən alınan nəticələr cədvəl 1.4. 2.-də verilmişdir.

**Cədvəl 1.4.2**

**Tədris resurslarının (avadanlıqlarının) təchizatındakı mövcud vəziyyətlə bağlı müəllimlərin cavab göstəriciləri**

| № | Tədris resursları və avadanlıqları | Ümumi say | N | % |
|---|---|---|---|---|
| 1. | Gerçək əşya və model | 120 | 55 | 45,8 |
| 2. | Yazı lövhəsi | 120 | 120 | 100,0 |
| 3. | Vizual resurslar (diaq. sxem və s.) | 120 | 77 | 64,2 |
| 4. | Xəritə | 120 | 101 | 84,2 |
| 5. | Yazılı resurslar: test tapşırıqları | 120 | 102 | 85,0 |
| 6. | CD/ DVD, slayd və filmlər | 120 | 69 | 57,5 |
| 7. | Təpəgöz proyektoru | 120 | 16 | 13,0 |
| 8. | Proyeksiya proyektoru | 120 | 81 | 67,5 |

**Cədvəl 1.4.2-nin ardı**

| | | | | |
|---|---|---|---|---|
| 9. | Kompüter | 120 | 85 | 71,0 |
| 10. | İntrnet bağlantısı | 120 | 81 | 67,5 |
| 11. | "Ağıllı" (smart) lövhə | 120 | 29 | 24,0 |
| 12. | Fənn kabineti / laboratoriya | 120 | 113 | 94,0 |

Şagirdlərin cavab göstəricilərinin təhlil. İlkin mərhələdə öyrənmək istədiyimiz növbəti məsələ belə idi: "Ümumtəhsil müəssisələrində müasir tədris resurslarından istifadə edilməsi ilə bağlı şagirdlərin fikirləri necədir?"

Dərs prosesində tədris resurslarından istifadə edilməsi ("Müəllim sinif mühitində tədris prosesində hansı resurslardan istifadə edir?") ilə bağlı dörd mümkün cavabı ("Müntəzəm olaraq hər gün", "Həftədə 2-3 dəfə", "Ayda 1 dəfə" istifadə edir və "Heç vaxt istifadə etmir") ilə bağlı şagirdlərin cavab göstəriciləri cədvəl 1.4.3-də ifadə olunmuşdur.

**Cədvəl 1.4.3**

**Şagirdlərin tədris resurslarından istifadə ilə bağlı cavab göstəriciləri**

| Resurslar | Müntəzəm olaraq hər gün | | | Həftədə 2-3 dəfə | | Ayda 1 dəfə | | Heç vaxt | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | n | n | % | n | % | n | % | n | % |
| Gerçək əşya və modellərdən istifadə | 300 | 44 | 14,7 | 85 | 28,0 | 94 | 31,3 | 79 | 26,3 |
| Vizual resurslardan istifadə | 300 | 36 | 12,0 | 90 | 30,0 | 104 | 34,7 | 70 | 23,0 |
| Yazılı resurslardan: test tapşırıqlarından istifadə | 300 | 216 | 72,0 | 70 | 23,0 | 10 | 3,3 | 4 | 1,3 |
| Kompüterdən istifadə | 300 | 70 | 23,0 | 54 | 18,0 | 96 | 32,0 | 80 | 26,7 |
| İnternetdən istifadə | 300 | 54 | 18,0 | 85 | 28,3 | 71 | 23,7 | 90 | 30,0 |
| Proyektorlardan istifadə | 300 | 54 | 18,0 | 70 | 23,3 | 109 | 36,3 | 67 | 23,3 |

**Cədvəl 1.4.3-ün ardı**

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Video, CD, DVD-lərdən istifadə | 300 | 50 | 17,3 | 79 | 26,0 | 97 | 32,3 | 74 | 24,0 |
| Qəzet, jurnal və s. yazılı resurslardan istifadə | 300 | 46 | 15,3 | 79 | 26,3 | 96 | 32,0 | 79 | 26,3 |
| Ağıllı (smart) lövhədən istifadə | 300 | 62 | 20,0 | 14 | 4,7 | 8 | 3,3 | 216 | 72,0 |
| Yazı lövhəsindən istifadə | 300 | 268 | 89,3 | 32 | 10,7 | - | - | - | - |
| Dərsdənkənar vaxtlarda müəllimlərlə internet vasitəsiylə (mail, e-poçt) ünsiyyətin qurulması | 30<br>0 | 54 | 18,<br>0 | 50 | 17,0 | 99 | 33,0 | 97 | 32,3 |

Tədqiqatın nəticəsi göstərir ki, tədris resursları arasında ən yüksək göstərici özünü test tapşırıqlarının istifadəsində, ən aşağı göstərici isə ağıllı (smart) lövhənin istifadəsində müşahidə olunmuşdur.

Araşdırmaya görə, məktəblərin hazırkı vəziyyətini nəzərə aldıqda, aşağıdakı problemləri görmək olar: müvafiq tədris resurslarının azlığı, onlardan məktəbdə istifadə etməyi bacaran müəllimlərə böyük ehtiyacın olması, texnoloji aparatların çoxunun istifadəyə yararsız vəziyyətdə olması, texnoloji aparatların sinif otaqlarında istifadə şəraitlərinin müvafiq olmaması, siniflərdə şagird sayının çox olması, müasir tədris avadanlıqları və resurslarından istifadə üçün lazımi təminat proqramlarının olmaması, məktəb rəhbərliyinin müasir tədris avadanlıqları və resurslarından istifadəni ikinci plana atması və s.

Eksperimentiin ilkin mərhələdsində öyrənmək istədiyimiz digər məsələ tarix fənni üzrə "Səfəvilər dövlətinin tarixi"nin tədrisi zamanı müasir resurslardan istifadə ilə bağlı idi: "Səfəvilər dövlətinin tarixi" ilə bağlı suallar I qrupda 207, II qrupda isə 202 nəfər şagirdə tətbiq edilmişdir. Əvvəldən nəzərdə tutulmuş siniflərdə "Səfəvilər dövlətinin tarixi" ilə bağlı dərslər ənənəvi qaydada tədris edilmişdir. Hər iki qrupda ənənəvi- verbal metoddan, dərslik və xəritədən istifadə edilmişdir.

Cavabların təhlili göstərir ki, hər iki qrupun nəticələri bir-birindən çox az fərqlənir. Məsələn, 1-ci suala I qrupda 48,8 faiz düzgün, 28,5 faiz səhv, II qrupda isə 45,5 faiz düzgün,27,2 səhv cavab vermişdir. Hər iki qrupda 22,7 faiz cavab verməkdən imtina etmişdir.

2-ci suala I qrupda (eksperimental) 40,1 faiz düzgün, 33,3 faiz səhv, II qrupda (kontrol) isə 35,6 faiz düzgün, 38,1 faiz səhv cavab vermişdir. I qrupda 26,5 faiz, II qrupda isə 26,2 faiz cavab verməkdən imtina etmişdir.

Şagirdlərin cavab göstəricilərinin ümumi müqayisəli təhlili dördüncü fəslin ikinci yarımfəslində cədvəl 4.1-də verilmişdir.

Təhlildən gəlinən qənaət belədir ki, göstəricilərin, nəticələrin yüksək olması üçün ilk növbədə qarşıya qoyulan məqsədə çatmağa imkan verən resurslardan istifadə düzgün planlaşdırılmalı və səmərəli şəkildə sistemli istifadə olunmalıdır. Bunun üçün dərsin məqsədi, məzmunu, metod ilə tədris resursu bir-birinə inteqrasiya olunmalı, bir-birini sistematik şəkildə tamamlamalıdır. Müəllim informasiya kommunikasiya texnologiyalarından, fəal təlim metodlarından, canlı söhbətlərdən istifadə etməklə, eyni zamanda şagirdlərin müstəqilliyinə, təşəbbüskarlığına yaradıcı və idrak fəallıqlarına geniş meydan verməklə, sinifdə resurslardan effektli istifadə edə bilər.

Yuxarıdakı təhlilin nəticələri əsasında Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində tədris prosesində tədris resurslarından istifadə ilə bağlı çatışmazlıqları aşağıdakı şəkildə ümumiləşdirmək olar:

1. Tədrisin məzmunu ilə resursların birləşdirilməsi-inteqrasiyası məsələsində nəzəri və praktik boşluqlar var; 2. Tədris prosesində əyanilik prinsipindən lazımi səviyyədə istifadə edilmir; 3. Tədris prosesində gerçək əşya və modeldən (maketdən) istifadəyə az diqqət yetirilir;. 4. Məktəblərdə olan CD, DVD, slayd və filmlərdən optimal şəkildə, sistemli olaraq istifadə edilmir; 5. Müəllimlərin proyeksiya proyektorları və kompüterdən istifadə ilə bağlı pedaqoji-metodik hazırlıqları az olduğundan, onlardan lazımi səviyyədə istifadə olunmur; 6. Vizual resursların imkanlarından optimal istifadə edilmir;

7.Təlimin məzmununda internetdən çox az istifadə edilir; 8. Müəllimlər ağıllı (smart) lövhədən istifadə ilə bağlı nəzəri və praktik problemləri yaxşı bilmir, yalnız ümumi təsəvvürə malikdirlər; 9. Yazılı resurslardan yalnız test tapşırıqlarından istifadəyə üstünlük verilir; 10. Müasir tədris resurslarının tətbiqində şagirdlərin fəallığı üçün lazımi şərait yaradılmır.

Bu çatışmazlıqları doğuran bir sıra səbəblər vardır:

1. Respublikanın ümumtəhsil məktəblərində müasir tədris resurslarının nəzəri-metodoloji əsasları bağlı elmi ədəbiyyatın nəşri qənaətbəxş deyil. 2. Tədris resursları ilə bağlı problemlərin araşdırılması dövrün tələblərinə cavab vermir; 3. Ümumtəhsil məktəblərində tədris prosesində müasir tədris resurslarının istifadəsinə praktik baxmdan kömək edən metodik ədəbiyyatın nəşri lazımi səviyyədə deyil; 4. Milli elektron tədris resurslarının hazırlanmasına böyük ehtiyac var; 5. Müəllimlərin tədris avadanlıqları və resurslardan istifadə ilə bağlı müvafiq bilik və bacarıqları lazımi səviyyədə deyil; 6. Müəllimlər müasir tədris avadanlıqları və resurslardan istifadə ilə bağlı təlim kurslarına mütəmadi cəlb edilmirlər; 7. Məktəblərdə olan tədris resurslarının çoxu köhnə olub, istifadə üçün tam yaralı deyil; 8. Mövzuya uyğun resurs məktəbdə tam yoxdur; 9. Məktəblərin müasir tədris avadanlıqları və resursları ilə təchizatına az diqqət yetirilir; 10. Sinif otaqlarında şagirdlərin sayı və fiziki şəraitin olmaması ilə bağlı problemlər var; məktəblərdə internet bağlantısı lazımi səviyyədə deyil.

Dissertasiyanın II fəsli "Ümümtəhsil məktəblərində tədris resurslarından istifadənin nəzəri əsasları" adlanır və üç paraqrafda ibarətdir. Fəsildə ümumtəhsil məktəblərində tədris resurslarından istifadənin nəzəri əsasları araşdırılır, didaktik, psixoloji və fizioloji kontekstdə təhlilə cəlb olunur.

II fəslin birinci paraqrafı "Tədris resurslarından istifadə üzrə işin didaktik əsasları" adlanır. Dissertasiyada tarixi-pedaqoji tədqiqatlara istinadən tədris resurslarının didaktik əsasları ələ alınır, tədris resursları elmi-nəzəri və konstruktiv (normativ tətbiqi) cəhətdən təhlilə cəlb olunur. Didaktik (pedaqoji) əsaslar dedikdə, pedaqoji fəa-

liyyətin qarşılıqlı əlaqədə olan məqsədlərinin vəhdəti, səciyyəvi prinsipləri, məzmunu, forma və metodları başa düşülür.

Tədris resurslarının elmi-nəzəri cəhətləri dedikdə, onların struktur və məzmun elementləri, təlim-tədris prosesindəki mövcud qanunauyğun əlaqələri, müəllim-tədris resursu-təhsilalan arasındakı münasibətlərə didaktik kontekstdə yanaşılması nəzərdə tutulur . Konstruktiv (normativ tətbiqi) cəhətlər isə, müasir dövrün tələbinə uyğun tədris resurslarının məzmunun yenilənməsini və yeni tətbiq texnologiyalarının hazırlanmasını özündə ehtiva edir.

Didaktika sözü yunanca "didakticos" və "didasko" sözlərindən götürülmüş, "öyrədən" və "öyrənən" mənasını verir. Didaktikanın predmetini müəllimin (öyrədənin) fəaliyyəti və təhsilalanın (öyrənənin idrak fəaliyyəti) qarşılıqlı fəaliyyəti təşkil edir.

Ümumi didaktikanın predmetini yalnız tədris, öyrənmə prosesi deyil, həm də onun həyata keçirilməsini təmin edən şərait və nəticələr təşkil edir.

Təlim öyrədən və təhsilalanların (öyrənənlərin) xüsusi təşkil olunmuş məqsədli və idarə olunan fəaliyyəti olub, onların qarşılıqlı fəaliyyəti prosesində bilik və bacarıqların verilməsi və mənimsənilməsi prosesidir. Qısaca ifadə etsək, təlim təhsil almaqdır.

Müqayisəli araşdırmalara əsasən müəyyən edilir ki, XX əsrin əvvəllərində didaktikada "təlim" anlayışını təşkil edən komponentlərə "tədris", "öyrənmə", "öyrətmə" anlayışları ilə yanaşı "tədris resusları" anlayışı da daxil edilmişdir. Didaktik baxımdan bu anlayışlar tədris resuslarıınıın öyrənmə və öyrətmə məqsədinə, fəaliyyətinə müvafiq müəyyənləşdirilir.

Hazırda bütün pedaqoqlar müəllimlərin öyrətdikləri mövzunu yaxşı bilmələri və bunu şagirdlərə müasir tədris avadanlıqları və resursların imkanlarından istifadə edərək, tam olaraq necə öyrədəcəkləri məsələsi üzərində dayanırlar.

İnformasiya cəmiyyətinin sosial sifarişinə, mövcud təhsil qanunvericiliyinə, pedaqoji psixologiyadakı inkişafa, şagird mərkəzli metodların inkişafına, elm və texnologiyanın, tədris avadanlıqları və

resursların müasir inkişaf səviyyəsinə, xüsusilə kompüter texnologiyasının təhsil müəssisələrinə getdikcə daha aktiv daxil olmasına təlimin və təhsilin məzmunu, metodları və təşkili formaları, həmçinin tədris resursları və avadanlıqlarının optimal imkanları, normativ tətbiqi funksiyaları ilə bağlı pedaqoji nəzəriyyə də, dəyişikliyə uğrayır. Tədris resurslarının məzmununun dəyişməsi tədris metodikasının yenilənməsini və onlara yanaşmaların didaktik əsaslarının təkmişlləşdirilməsini zəruri edir.

Hazırda təhsilin məzmunu, onun prosesual komponentlərinə, yəni məqsəd, məzmun, metod, tədris resurslarına (o cümlədən tədris avadanlıqlarına) bütöv bir sistem kimi baxılır. Sistemə daxil olan hissələr bir-biri ilə qarşılıqlı əlaqədə olub, bir-birini tamamlayır. Bunlar arasında əlaqələri müəyyənləşdirən və ən mühüm didaktik vasitə olan tədris resursları xüsusi yer tutur, təlimin məzmununun həyata keçirilməsində bu amillərin birliyini özündə əks etdirir. Qeyd olunan bütün bu məsələlərin xarakterik xüsusiyyətləri təhlilə cəlb olunur.

Dissertasiyada tarixi-pedaqoji tədqiqatlara istinadən tədris resurslarından istifadənin ümumi didaktik prinsipləri ilə bağlı yanaşmaların izahı verilir və həmin prinsiplərin mahiyyətinə aydınlıq gətirilir. Məsələn, fərdilik prinsipi eyni yaş qrupunda olan şagirdlərin qabiliyyətləri (yüksək, orta, aşağı), qavrayışı, təfəkkürü, təxəyyülü, hafizəsi, diqqəti, maraq və meylləri, qüvvə və imkanları, temperamenti, işgüzarlığı, çalışma istək və səyləri, təlimə münasibəti (müsbət, biganə, mənfi), şəxsiyyətinin xarakteri kimi fərdi xüsusiyyətlərinin olması fərziyyəsinə əsaslanır.

Yaxud lazımi mühitin yaradılması prinsipi. Bu prinsip tədris resurslarından istifadəni nəzərdə tutan təlim üçün lazımi mühit yaradılması, onun keyfiyyətinin yüksəldilməsi fərziyyəsinə əsaslanır. Məsələn, sinif otağında internet bağlantısının olmaması, yaxud zəif olması kompüter əsaslı texnologiyanın tətbiqinə mənfi təsir göstərir. Tədris prosesinin müvafiq tədris avadanlıqları və resursları ilə təmin edilməsi; sinif otaqlarının, tədris avadanlıqlarının zəruri gigiyenik tələblərə uyğun qurulması, sinif otağının sahəsi, hava tutumu, tempe-

raturu, partaların uşaqların boyuna uyğunluğu; sinifdə humanist mənəvi-psixoloji atmosfer yaradılması, müəllim-şagird münasibətlərinin əməkdaşlıq əsasında qurulması və s. tələblərə uyğun fəaliyyətin təşkili lazımi mühitin yaradılması prinsipinə əməl edilməsinə imkan yaradır.

Həmçinin, iqtisadi cəhətdən sərfəli olma prinsipi. Təlim-tədris fəaliyyətində maliyyə cəhətdən çox da bahalı olmayan, iqtisadi cəhətdən sərfəli, asan əldə edilən və praktiki olan tədris avadanlıqları və resursları əsas götürülməlidir. Bunların mümkün olmadığı hallarda müəllim mövzuya, təhsilalanların yaş və fərdi xüsusiyyətlərinə uyğun olaraq öz resurslarını yaratmalıdır. Təlim prosesində tədris avadanlıqları və resurslarından istifadə ən az maliyyə xərci, vaxt, əmək və enerji sərf edilərək, ən yüksək səmərə əldə ediləcək şəkildə təşkil edilməlidir.

Ümumi didaktik prinsiplərdən olan əməkdaşlıq prinsipi şagrid-müəllim, müəllim-valideyn, şagird-şagird arasında ünsiyyətin, qarşılıqlı humanist əməkdaşlığın təmin edilməsi, bir-birini qarşılıqlı dərk etmə, təlim fəaliyyətində əməkdaşlıq, inama əsaslanan birgə yaradıcılıq, şagirdlərdəki çatışmazlıqlara qarşı dözümlülük, məcburetmənin olmaması, müsbət stimullaşdırmadan istifadə fərziyyəsinə əsaslanır və s.

Optimallıq prinsipi isə məqsəddən və konkret mühitdən çıxış edərək, ən münasib (optimal) tədris avadanlığı və resursu seçib, tətbiq etməklə mümkün olan yüksək nəticəyə nail olmaq fərziyyəsinə əsaslanır.

İnkişafetdiricilik prinsipi şagirdin potensial imkanlarını müəyyənləşdirib, gerçəkləşdirmək üçün xüsusi təlim şəraitinin yaradılması, təlim inkişafı qabaqlamalı fərziyyəsinə əsaslanır. Müəllimlərin tədris resurslarının müasir imkanlarından istifadə etməklə, təlim prosesində şagirdin məntiqi təfəkkürünü və yaradıcılığını formalaşdırmaq onun bilavasitə inkişafetdiricilik prinsipinə əməl etməsi deməkdir.

Müəllimin tədris prosesində bu prinsiplərə kompleks əməl etməsi dərsi daha səmərəli təşkil etməyə, bu da özlüyündə təhsilin keyfiyyətinin yüksəlməsinə kömək edir.

Didaktikada tədris resurslarından istifadə zamanı planlaşdırma əsas amillərdəndir. Müasir təhsil strategiyası, tədris avadanlıqları və resurslarının inkişaf dinamikası və mürəkkəbliyi, daim dəyişməsi sistemli planlaşdırmanın rolunu və əhəmiyyətini daha da, artırır. Tədrisin planlaşdırılması anlayışına təhsilin məqsədi, məzmunun formalaşdırılması konsepsiyasının elmi sistemi və habelə tədris resurslarının (həmçinin avadanlıqları) tədris prosesində istifadəsinin şüurlu nizamlanmasına yönəldilmiş fəaliyyət növü, praktik proses kimi baxmaq olar.

Tədris resurslarınınn istifadəsi məsələlərində şagirdlərin öyrənmə tiplərinin müəyyən edilməsi də, böyük əhəmiyyətə malikdir.

Təlim prosesində tədris resurslarının tətbiqinin əsas hədəflərini, onun didaktik əsaslarını bilmək müəllimə tədris prosesini daha canlı, səmərəli təşkilinə, təhsilalanlarda eyni zamanda bir necə hiss üzvünün iştirakını təmin etdiyinə görə öyrədilən proses və hadisələr haqqında düzgün təsəvvürün, təxəyyülün yaranmasına, onların daha fəal olmasına və öyrənməyə olan marağının inkişaf etməsinə, təlimin bütün mərhələlərində biliyin asan mənimsənilməsinə və hafizədə uzun müddət qalmasına kömək etməyə imkan verir.

"Tədris resurslarından istifadə üzrə işin fizioloji əsasları" adlanan ikinci paraqrafda tədris resurslarından istifadənin fizioloji (təbii-elmi) əsasları araşdırılır. Öyrənmə prosesinin təbii-elmi əsasları, öyrənmənin təbiəti və doğurduğu nəticələri izah etməyə yönəlmiş bir sıra nəzəriyyələr, xüsusən neyrofizyoloji öyrənmə nəzəriyyəsinin təhsilə töhvəsi, öyrənmə və öyrətmənin necə meydana gəldiyini izah etməyə yönəlmiş mülahizələrə yeni ideyaların qazandırılması kimi məsələlər üzərində durulmuş, müvafiq təkliflər verilmişdir.

Öyrənməyin meydana gəldiyi orqan olması səbəbindən beyin, beynin quruluşu və fəaliyyəti hər zaman pedaqoqları maraqlandırmışdır. Son dövrdə dünyanın qabaqcıl ölkələrində öyrənmə prosesinin

fizioloji əsasları, öyrənməyin meydana gəldiyi orqan olması səbəbindən beyin, beynin quruluşu və fəaliyyəti tədqiqatçıların (fizioloqların, pedaqoqların) diqqət mərkəzində olmuşdur.

Fizioloqlara görə, öyrənmə bilavasitə fiziologiya (yunanca physis /φύσις-təbiət və logos /λόγος) bilik, elm sözlərinin birləşməsindən əmələ gəlmişdir.

1970-1980-cı illərdən başlayaraq dünyanın qabaqcıl ölkələrində öyrənmənin fiziologiyası (təbii-elmi əsasları) ilə bağlı tədqiqatlar genişlənmiş, heyvanlar üzərində edilən bəzi psixoloji təcrübələr əsasında öyrənmə və hafizənin fizioloji (bioloji-təbii-elmi) əsasları ilə əlaqədar yeni bir dünyagörüş-beyin əsaslı (neyrofizyoloji, neyroelm) nəzəriyyə yaranmışdir. Neyrofizyoloji nəzəriyyə ("neurocognitive science") beyin və öyrənməni bir elm olaraq adlandıran nəzəriyyənin inkişafına öz töhfəsini vermiş, öyrənmənin necə meydana gəlməsi ilə bağlı müxtəlif ideyalar və nəzəriyyələrin yaranmasına səbəb olmuşdur.

Son dövrlərə qədər bizə yad olan bu sahə artıq təhsil sistemində özünə yer tapmağa başlamış, bu mövzuda çox sayda kitab çap olunmuş və konfranslar keçirilmişdir. Məsələn, 1990-cı illər beyin dekadası ("The Decade of the Brain") olaraq adlandırılmışdır. Bu dekadada beyin araşdırmalarına xüsusi diqqət verilmiş, onun gələcəkdə təhsilə verəcəyi töhfə vurğulanmışdır.

Neyroelm üzrə alim və sinir anatomiyası professoru Marian Diamond tərəfindən ortaya atılan "sinirlərin elastikliyi (neuroplasticity)" anlayışı təhsil üçün xüsusi bir əhəmiyyət daşıyır.

Beyinin strukturu və fəaliyyəti ilə bağlı tədqiqatçılar tərəfindən irəli sürülən bir sıra yanaşma və modellər vardır. Məsələn, "Beyin əsaslı öyrənmə" (Neyrofizioloji), "Beyinin sağ və sol yarımkürələr modeli", "Dört kvadrat beyin modeli" (Whole Brain Theory), "Üçlü beyin modeli", "Neyroelm (Neuroscience)" nəzəriyyəsi və s.

Beyin əsaslı öyrənmə (Neyrofizioloji) nəzəriyyəsində öyrənmə biokimyəvi bir dəyişiklik olaraq izah edilir. Bu nəzəriyyənin əsasını Donald Olding Hebb qoymuşdur. Donald Hebb və digər tədqiqatçılar

neyrofizyoloji (beyin əsaslı) nəzəriyyəni-insan beyninin iş sistemini yaxşı öyrənmədən, öyrənmənin tam olaraq aydın ola bilməyəcəyi ideyasını müdafiə edirlər.

Tədqiqatçılar tədris resursları ilə fizioloji öyrənmə prosesinin dörd mərhələdən ibarət olduğunu qeyd edirlər: 1.Giris (Input).Gələn məlumatların duyğu orqanlarından beynə girməsi, qəbul edilməsi. 2. İnteqrasiya. Gələn məlumatın təsəvvür edilməsi, anlaşılması və şərh olunması. Bu mərhələdə məlumatı ardıcıl vermə, mücərrədləşmə, təşkil etmə gerçəkləşir. 3.Hafizə (yaddaş). Aydın olan məlumatın təkrar istifadə edilərək, hafizədə saxlanması. 4.Çıxış (Output). Beynin məlumatı mesaj olaraq hüceyrələrə, əzələlərə, dil, yaxud mütəhərrik fəaliyyət sahələrinə göndərməsi.

Yuxarıda bəhs etdiyimiz prosesə belə tərif vermək olar: beyin, öyrənmə prosesi içərisində məlumatı duyğular vasitəsi ilə təhlil edib, işləyib hafizədə saxlayır və lazımlı olduğu zaman geri çağırır. Bu mərhələdə gələn hər məlumat, beyindəki sinir şəbəkələrinin quruluşunda müxtəlif dəyişmələrə səbəb olur. Bütün öyrənmə proseslərində beyindəki sinir hüceyrələrinin strukturları fərqlidir və sinir hüceyrələri arasındakı kimyəvi və elektrik ünsiyyətə imkan verən sinapsların (iki neyronu bir-birinə birləşdirən səth) sayları artır. Yeni şeylər öyrənməyə davam etdikcə, beyindəki bu sinir şəbəkələri böyüyüb kompleksləşir. İnsan hadisələr arasındakı əlaqələri daha asan qura bilməyə başlayır. Bu məqamda duyğu orqanlarının sağlam olmasının əhəmiyyəti malik ortaya çıxır.

Caine ve Caine təlim prinsiplərini aşağıdakı kimi sıralamışdır:

1.Öyrənmə fizioloji hadisədir. Fərdin tədris prosesində verəcəyi reaksiyalar toplusudur. Bunun üçün təhsilalanın ilk növbədə fizioloji baxımdan sağlam olması lazımdır. Xüsusi ilə görmə, eşitmə kimi duyğu orqanlarında pozğunluqlar, xroniki bir xəstəliklər və fiziki çatışmazlıqlar öyrənməyə mənfi istiqamətdə təsir edir. 2. Öyrənmədə beynin sol hissəsi (riyazi, məntiqi, analitik, şifahi xüsusiyyətlər) və sağ hissəsi (təxəyyülçü, yaradıcı, duyğulu, vizual) bir bütün olaraq fəaliyyət göstərir; 3. Öyrənmədə çox sayda duyğu orqanına: gözə və

qulağa xitab edən tədris resursları istifadə edilməlidir; 4. Maraq və diqqətinin cəlb edilməsi, motivasiyaı vacib şərtdir. 5. İnsanların bəzi məlumatları təkrara ehtiyac qalmadan xatırlaması vizual hafizə ilə əlaqəlidir; 6. Beyin ona çatan hər cür qıcıqlandırıcıya reaksiya verir. Öyrənmə çoxlu refleksin olduğu dairədə baş verir; 7. İnsan beyni eyni anda bir çox funksiyanı yerinə yetirməyə qadirdir. 8. Hər beyin fərdi, özünə məxsusdur; 9. Təhsilalanın aktif fəaliyyəti, kommunikativ bacarıqları, ixtira-kəşf etmək, problem həll etmək, biliyi tətbiq etmək kimi keyfiyyətləri inkişaf etdirilməlidir; 10.Təhsilin ilk illərində təhsilalanlara əsas bacarıqlar qazandırılmalıdır; 11.Müəllim həvəsləndirici, tolerant, anlayışlı, demokratik və ünsüyyətcil olmaqla, təhsilalanın özünə inamını artırmalıdır və s. (Caine R.N., & Caine G. Understanding a Brain-Based Approach to Learning and Teaching, Educational Leadership//, October, 1990, № 48(2), pp. 66-70).

Beyin araşdırmalarından təhsildə istifadə edilməsinin əsas məqsədi pedaqoqların beynin quruluşunu dərk etməsindən başqa, şagird beynin hansı potensiala malik olduğunu, nələr edə biləcəyi, hansı hisslərin (məmnuniyyət, stress, qorxu kimi) beyində nə kimi hadisələrə səbəb ola biləcəyinin qavramasıdır.

Öyrənmə əslində bioloji terminlərlə açıqlanmayacaq qədər mürəkkəb, naməlum olan, anlaşılması çətin bir hadisə olduğu heç bir zaman unudulmamalıdır. Öyrənməyi xırdalayarkən yalnız bir cəhətdən qiymətləndirmək əvəzinə, hadisəni psixoloji, sosioloji, fəlsəfi, bəlkə də tarixi baxımdan ələ almaq lazımdır.

Yuxarıda deyilənləri yekunlaşdıraraq, aşağıdakı təklifləri vermək olar:

1.Fizioloji əsaslı öyrənmə yanaşmasını təmin edəcək tədris resursu və ona müvafiq metod, strategiya istifadə etməli; 2. Hər bir şagirdin fərdi öyrənmə xüsusiyyətləri, maraq sahələri, bacarıqları, öyrənmə formaları diqqətə alınaraq, tədris resursu ilə bağlı təhsil fəaliyyətləri təşkil edilməli; 3.Əyləncəli bir sinif mühiti yaradılmalı; 4. Məktəblərdə şagirdin hər iki beyin yarımkürəsini fəaliyyətə gətirən fərqli resurslar tətbiq edilməli; 5. Şagirdlərin rahat istifadə edəcəyi resurs-

larla zəngin mühitlər yaradılmalı; 6. Təlimdə şagirdlərin müvəffəqiyyət, bilik, bacarıq və vərdişləri fərqli fizioloji modellər üzərində qurulmalı; 7. Məktəblərdə kompüter, proyektor, "Ağıllı" lövhə və s. tədris avadanlıqlarından istifadə məsələsində müəllimlər mütəmadi məlumatlandırılmalı.

İkinci fəslin "Tədris resurslarından istifadə üzrə işin psixoloji əsasları" adlanan üçüncü paraqrafında tədris resurslarından istifadənin psixoloji əsasları araşdırılır. Öyrənmənin psixoloji əsasları, əsas anlayışları və prosesləri, təhsilalanların (öyrənənlərin) fərdi xüsusiyyətləri və onların inkişafında təlim fəaliyyətinin (tədris resurslarının) aparıcı rolu, keyfiyyətli öyrənmənin təmin edilməsində psixoloji komponentlərin rolu və imkanları, səmərəli öyrənmə metodları öyrənmə ilə bağlı bu və digər prioritet məsələlər psixoloji kontekstdə təhlilə cəlb olunur.

Daim inkişafda və dəyişməkdə olan psixoloji xüsusiyyətlərlə təlim prosesində qarşılıqlı münasibət məsələsi son dövrlərdə böyük aktuallıq kəsb edir. Dövrün tələblərinə müvafiq olaraq təhsilalanların psixoloji inkişafında təlim fəaliyyətinin aparıcı rolu, pedaqogika ilə psixologiyanın qarşılıqlı əlaqəsi, psixologiyanın kateqoriya və anlayışlarından, məlumatlarından öyrənmə-öyrətmə prosesində istifadə getdikcə dəyişir və təkmilləşir. Çünki, təlimdə yalnız pedaqoji deyil, həm də, psixoloji qanunauyğunluqların böyük əhəmiyyəti vardır.

Psixoloji qanunauyğunluqlara görə, təhsilalan hər hansı bir fənlə bağlı müvafiq bacarıqlara, qabiliyyətə irsən sahib olur, yəni təbii imkanlarla doğulur. Lakin, təbii ilkin şərtlər hələ qabiliyyət olmayıb, təbii imkanlardır. Yalnız müvafiq şəraitin, öyrənmə fəaliyyətinin təsiri altında həmin imkanlar qabiliyyətin, bacarıqların formalaşmasına gətirib çıxara bilər. Əgər bu cür şərait yaranmasa, qeyd edilən imkanlar ancaq imkan səviyyəsində qalaraq qabiliyyətə, bacarığa çevrilməyəcək.

Təhsilalanın təbii inkişaf mərhələlərinin, konkret yaş xüsusiyyətlərinin nəzərə alınması pedaqoqlar tərəfindən əsas pedaqoji prinsiplərdən biri hesab olunur.

Təhsilalanla bağlı amillər. İrsiyyət və inkişaf. Orqanizmin irsən sahib olduğu potensial güclərin (bədən orqanlarının), özündən gözlənilən funksiyaları zamanla yerinə gətirə biləcək (fəaliyyət göstərə biləcək) vəziyyətə gəlməsinə inkişaf deyilir. Bir çox tədqiqatçılar yetkinləşməyə yaş və zəka (zehin) baxımından yanaşır.

Zehin ilə əlaqədar bir çox nəzəriyyə ("Tək amil nəzəriyyəsi", "Cüt amil nəzəriyyəsi", "Çox şaxəli qabiliyyətlər nəzəriyyəsi" və s.) vardır. Bunların içərisində müəllimlər üçün əhəmiyyətli məlumatlarla zəngin olması baxımından amerikalı psixoloq, Harvard Universitetinin professoru Hovard Gardnerin irəli sürdüyü "Çoxşaxəli zehni qabiliyyətlər" nəzəriyyəsi daha aktual olub, son illərdə dünya psixo-pedaqogikasında uğurla tətbiq edilir. Qeyd edək ki, H.Gardner J.Piajenin koqnitiv inkişaf konsepsiyasına əsaslanan, bu konsepsiyasını inkişaf etdirən alimdir.

Öyrənmədə tələbat, impuls, motivasiya, məqsəd, fəaliyyət kimi anlayışların, o cümlədən öyrənməyə psixoloji hazırlıq böyük əhəmiyyəti kəsb edir. Öyrənməyə psixoloji hazırlıq mərhələnin əsas məqsədi sinif mühitində istifadə ediləcək tədris resursları haqqında təhsilalanlarda (öyrənəndə) aydın təsəvvür yaratmaq, təlimə həvəs oyatmaq, başqa cür ifadə etsək, onları resursun köməyi ilə öyrəniləcək materialı qavramağa psixoloji cəhətdən hazırlamaqdır.

Təsadüfi deyil ki, təhsilalanların fərdi psixoloji xüsusiyyətləri, onların inkişafı təlim prosesinin səmərəliliyinin və müvəffəqiyyətinin təmin edilməsinin əsas xüsusiyyətlərindəndir. Bu baxımdan şagirdlərlə işləyən, onların formalaşmasında iştirak edən hər bir pedaqoq psixologiyanı bilməli, psixoloji xüsusiyyətlərin inkişafı haqqında əsaslı, elmi məlumata malik olmalıdır.

Son illərdə şagirdlərin fərdi fərqliliklərinin və dolayısı ilə öyrənmə formalarının təlim-tədris fəaliyyətlərində diqqətə alınmasının zəruriliyi məsələsində bir çox konsepsiya, fərqli modellər ortaya atılmışdır. Hər bir təlim konsepsiyası, modeli öyrənməyi öz yanaşması əsasında izah edir. Təhsilalanın (öyrənənin) sinif mühitində fərqli öyrənmə metodu baxımından Felder-Silverman modeli diqqəti cəlb edir.

Hazırda qabaqcıl ölkələrin təhsil sistemində prioritet hesab olunan Felder modelinin əsasını təşkil edən öyrənmə modelləri haqqında ətraflı məlumat verilir.Öyrənmə ilə bağlı olan konsepsiyalardan müasir öyrənmə nəzəriyyəsi hesab olunan koqnitiv-idrak konsepsiyası daha prioritet əhəmiyyət kəsb edilir.

Onu da qeyd edək ki, Respublikamızda fənn kurikulumlarının metodoloji bazasını koqnitiv-idrak (inkişaf) konsepsiyası təşkil edir.

Psixologiyanın bir bölməsi olan koqnitiv psixologiya şüurun koqnitiv (idraki, dərketmə) proseslərini öyrənir. Çox vaxt Gestalt konsepsiyası kimi də tanınan koqnitiv inkişaf psixologiyası məqsəd, motivasiya, maraq, diqqət, qavrama, hafizə, əsaslandırma, problem həlli, kreativlik, tətbiq etmə, informasiyanın ötürülməsinin quruluşu və komponentlərini öyrənir.

Pedaqoji kadrların psixoloji hazırlığının yüksəldilməsi, təhsil prosesində psixoloji tövsiyələrdən istifadə etmək işində yeni metodların həyata keçirilməsi artıq günün tələbi olub, böyük aktuallıq kəsb edir.

Dissertasiyada yuxarıda deyilənlərdən aşağıdakı nəticəyə gəlinir:

Ümumtəhsil müəssisələrində sinif mühitində tədris resursları və avadanlıqlarının istifadə olunması üzrə işin didaktik, fizioloji və psixoloji əsaslarını bilməklə təhsillalanların mənəvi və psixoloji iqlimini saflaşdırmaq, müəllim-şagird münasibətlərini optimal qurmaq mümkündür.

III fəsil "Ümumtəhsil məktəbləri üçün tədris resurslarının hazırlanması və seçilməsi məsələləri" adlanır və üç paraqrafda ibarətdir.

"Tədris resurslarının təsnifatı" adlanan birinci paraqrafında tədris prosesində tətbiq olunan tədris resurslarının təsnifatı verilir. Təlim vasitələri, tədris resursları və avadanlıqları ilə bağlı mövcud olan müxtəlif təsnifatlar, onların elementləri ilə bağlı məsələlər araşdırılır, daha geniş yayılan təsnifatlarla bağlı yanaşmaların izahı verilir.

Tədris resursları və avadanlıqları hər biri öz mahiyyəti və tərkibi baxımından fərdidir

Müxtəlif tədqiqatçıların tədris resursları və avadanlıqları ilə bağlı verdikləri təsnifatları ümumiləşdirərək, belə bir təsnifat vermək müvafiqdir: klassik tədris resursları; elektron tədris resursları; gerçək əşyalar və modellər (maketlər).

Klassik resurslara (o cümlədən tədris avadanlıqlarına) daxildir: yazı və nümayiş lövhəsi; yazılı resurslar; şəkillər; vizual resurslar: xəritələr; diaqram, qrafik, sxem, cədvəl və s.

Yazılı resursların istifadəsini səmərəli edən üç əsas məqam vardır: resursun oxunaqlılıq səviyyəsi, məzmunu və dizaynı.

Beynəlxalq təcrübəyə əsaslanaraq qeyd etmək olar ki, yazılı resurslar içərisində ana xətti dərslik, müəllim üçün bələdçi rolunu oynayacaq metodik resurs və şagirdlər üçün mövzuların izahı və tapşırıqlardan ibarət metodik resurs təşkil edir.

Vizual resurs: şəkillər. Tədrisdə istifadə olunan şəkillərdən təhsilin bütün pillələrində fənn müəllimləri tərəfindən uzun illərdir istifadə edilir.

Vizual resurslar: xəritələr tədris prosesində istifadə olunan əsas resurslarındandır.

Zehni, anlayış və məlumat xəritələri çox fərqli məqsədlər üçün istifadə oluna biləcək vizual bir öyrənmə metodlarıdır. Bu xəritələr hazırlanarkən beynin həm sağ, həm də sol hissələri birlikdə fəaliyyət göstərir.

Vizual resurslar: qrafik, cədvəl, sxem, diaqram. Məktəbdə tədris resursları az olduqda buna ehtiyac daha da artır.

Xəritə, qrafik, sxem, cədvəl və digər oxşar iki ölçülü resurslar həm əllə, həm də kompüter vasitəsi ilə hazırlana bilir.

Qeyd etmək lazımdır ki, məktəbdə, sinif mühitində müasir elektron resurslar və avadanlıqlar olmadığı hallarda, klassik resurlar böyük əhəmiyyət daşıyır.

Elektron resurs və avadanlığa daxildir: slayd və filmlər; proyektorlar; video, televiziya, SD, DVD; vizual resurs, kompüter, “Ağıllı”(smart) lövhə və s.

Slayd və filmlər. Slaydlar müxtəlif tədris proqramlarına uyğun hazırlanır. Yeni mövzuları öyrənmək, mövzuyla əlaqədar keçilmiş məlumatları xatırlatmaq, mövzulara maraq oyandırmaq və diqqət çəkmək üçün istifadə edilir.

CD, DVD, video və oxşar resurslar digərləri ilə nisbətdə tədris prosesində daha çox üstünlüyə malik olub, qazanılması nəzərdə tutulan nailiyyətlərin öyrədilməsində daha səmərəlidir.

Video, latınca "görürəm" mənasını verən və görünüş işarələri ilə əlaqədar bir termindir. Bu termin görünüşlərin bir televiziya ekranında, ya da ona bənzər bir ekranda əks etdirilməsi mənasını daşımaqdadır.

Proyektorlar kompüter və ya televiziya ekranındakı görünüşü daha da böyüdərək, pərdəyə və yaxud da divara əks etdirən görüntü cihazlarıdır.

Kompüterdən tədris prosesində istifadə. Test balları, statistika, CD, göstərici ekran, yazının qeyd edilməsi, təqdimatların hazırlanması, mikrofon vasitəsi ilə ünsiyyət və s. kompüterlərin üstünlükləridir.

"Ağıllı" (smart) lövhə müasir tədris avadanlıqlarındandır. "Ağıllı" lövhə-kompüterdəki görünüşün proyektorun köməyi ilə əks etdirilməsi şəklində işləyir. Lövhə üzərində kompüterin bütün funksiyaları xüsusi qələm köməyi ilə işlədilməkdədir.

Gerçək əşya və modelləri (maketləri) həm klassik, həm də elektron resurslara daxil etmək olar. Gerçək əşyalar və modellər (maketlər) klassik və elektron resursların hər ikisinin də içində xüsusi əhəmiyyətə malikdir. Ölçülərinə görə çox böyük, ya da çox kiçik obyektləri sinfə gətirmək imkansızdır. Buna görə də, ən yaxşı yol o əşyanın-obyektin mükəmməl modelinin (maketinin) düzəldilməsidir. Həyatda olanın özü və ya gerçək bir əşyanın üç ölçülü real görüntünü təmin edən gerçək əşya və modellərdən istifadə edilir.

Modellər. Modellər (maketlər) gerçək bir əşyanın üç ölçülü nümayişi olub, gerçək əşyaların eyni xammalından ya da bir başqa xammaldan düzəldilmiş nümunələridir.

Bu gün cəmiyyətin gələcək tərəqqisi xeyli dərəcədə tədris resurslarının infrastrukturunun səmərəli formalaşdırılması, təkmilləşdirilməsi və istifadəsi ilə bilavasitə bağlıdır. Bu baxımdan təhsil sistemi cəmiyyətdə, xüsusən elm və texnologiya sahəsində olan dəyişiklikləri daim izləmək və buna müvafiq olaraq özünü dəyişdirmək məcburiyyətindədir.

III fəslin ikinci paraqrafı "Tədris resurslarının hazırlanması prinsipləri" adlanır. İkinci yarımfəsildə tədris resurslarının hazırlanması prinsiplərindən bəhs olunarkən ilk növbədə cəmiyyətdə yaşanan dəyişiklik və inkişafların ən çox təsir etdiyi sahələrin başında təhsil qurumlarının gəldiyi vurğulanaraq göstərilir ki, təhsilin məzmunu, tədris proqramları, tədris resursları, müəllim və şagirdin funksiyası informasiya cəmiyyətinin ehtiyacları, dövrün tələbləri istiqamətində dəyişmiş və dəyişməkdədir.

Müasir dövrdə cəmiyyət, elm və texnologiyanın fasiləsiz dəyişməsi, sürətli inkişafı tədris resurslarının məzmununun dəyişməsinin həm səbəbi, həm də nəticəsidir. Məhz bu amil digər sahələrin, eləcə də tədris resurslarının məzmununa təsir etməkdə, onu dəyişməyə məcbur etməkdədir. Ölkəmizdə kifayət qədər tədris resurslarının, xüsusilə də yazılı resursların olmadığı və yaxud olanların qeyri-kafiliyi, istifadəyə yararsız olması həmçinin respublikamızda 12-illik təhsilə hazırlıq işləri, yeni kurikulumun hazırlanması yeni tədris resurslarının yaradılması zərurətini önə çıxarır.

Tədris resurslarının məzmununu dəyişməyə məcbur edən amilləri təqribən iki qrupa bölmək olar. 1.Cəmiyyət, iqtisadi, texnoloji və hüquqi təsirlərdən ibarət olan xarici amillər; 2.Təhsil sisteminin strukturu, insan amili, texnologiya ilə bağlı olan daxili amillər.

Müasir elm və tədris prosesində meydana gələn dəyişikliklərin tədris resurslarının məzmununda öz əksini tapması əsas aspektlərdəndir. Fakt, proses və təzahürlərin bir xüsusiyyəti də ondan ibarətdir ki, onlar daimi deyillər. Zaman keçdikcə dəyişir, yerlərini yenilərinə verməlidirlər. Xüsusi ilə humanitar fənlər üzrə tədris resursları müasir elm əsasında, yeni fakt, proses və təzahürlərin fonunda təzələnməlidir.

Tədris resursunun hazırlanması müvafiq planın tərtib edilməsi və tətbiqindən başlayır. Planda resursdan hansı məqsədlə istifadə ediləcəyi, hansı fəaliyyətdə tətbiq ediləcəyi və s. məsələlər öz əksini tapmalıdır.

Tədris resurslarının hazırlanmasında ümumi olan prinsipləri aşağıdakı şəkildə qruplaşdırmaq olar: sadə və aydın olmalıdır; fənnin və mövzunun məqsədlərinə uyğun hazırlanmalıdır; fənnin və dərsin mövzusunu əhatə edən bütün məlumatlar deyil, əhəmiyyətli və xülasə şəkilli məlumatlar yer almalıdır; məzmunu elmi cəhətdən doğru olub, aktual məlumatları özündə əks etdirməlidir; elmi səhv olmamalıdır; Azərbaycan dilinin xüsusiyyətləri pozulmamalı və doğru olaraq istifadə edilməlidir; əsas insan haqlarına zidd olmamalıdır; fənni təşkil edən mövzular ekstremizmdən uzaq olmalıdır; estetik, ədəbi, mədəni və ictimai dəyərlərə uyğun olmalıdır; vizual resurslar mətnləri tamamlayıcı olmalıdır; vizual dizayn cəmiyyətin ümumi dəyərlərinə zidd olmamalıdır; dizayn elementlərində reklam xüsusiyyətinə yer verilməməlidir; şagirdin fərdi xüsusiyyətlərinə uyğun olmalıdır; gerçək həyatı əks etdirməli; sual və tapşırıqlar şagirdlərə tətbiq imkanı təmin etməlidir; təkrar istifadə edilə biləcək davamlı materiallardan çap edilməli, bir dəfə istifadə etməklə yararsız hala düşməməlidir; oxuna bilən şrift ilə yazılmış olmalıdır; lazım gələndə asanlıqla təkmilləşdirilməli və yenilənməlidir.

Ölkədə təhsilin məzmunu ilə bağlı islahatların müvəffəqiyyətlə həyata keçirilməsi üçün bu istiqamət üzrə kompleks işlər aparılmalıdır.

Dissertasiyada dünyanın qabaqcıl ölkələrində tədris resuslarının, xüsusilə humanitar fənlər üzrə resuslarının hazırlanmasında və qiymətləndirilməsində meydana gələn yeni yanaşmaları nəzərə alaraq, konstruktiv təkliflər verilir.

III fəslin üçüncü paraqrafı "Tədris resurslarının seçilməsi prinsipləri" adlanır. Üçüncü yarımfəsildə tədris resurslarının seçilməsi prinsiplərinə aydınlıq gətirilir, əsas prinsiplər, seçilmənin səmərəli yolları və s. məsələlər əhatəli şəkildə şərh olunur.

Təlim prosesində istifadə edilməsi nəzərdə tutulan tədris resursları: tədris proqramına, seçilən pedaqoji metod və məqsədləri reallaşdırmağa uyğun olmalıdır; elmi məlumatları dəstəkləməlidir; məlumatlar doğru və aktual olmalıdır; mövzunun öyrənilməsini asanlaşdırmalı və dəstəkləməlidir; sadə və aydın olmalıdır; şagirdi motivasiya edici və maraq yaradacaq xüsusiyyətdə olmalıdır; texniki quruluşu çox mürəkkəb olmamalıdır; şagirdlərin yaş və fərdi xüsusiyyətlərinə uyğun olmalıdır; fiziki şərait olmalıdır; sərf ediləcək vaxta, əmək və maliyyə vəsaitinə müvafiq olmalıdır; iqtisadi cəhətdən sərfəli olmalıdır.

Yalnız bu tələblər müəyyən edildikdən sonra, müəllimlər onların seçilməsini həyata keçirə bilər. Tədris resurslarının seçilməsi ilə bağlı bir sıra ümumi prinsiplər vardır (bax. Sxem 3.3.1).




**Sxem 3.3.1. Tədris resurslarının seçilməsinin ümumi prinsipləri**

Tədris resurslarının (avadanlıqlarının) seçiminə təsir edən amillər təsnif edilərək, cədvəl 3.3.1-də verilmişdir.

**Cədvəl 3.3.1**

**Tədris resurslarının (avadanlıqlarının) seçiminə təsir edən amillər**

| | Amillər | Gerçək əşya və modellər (maketlər) | Yazılı resurslar | Slayd | Video və film | Kompüter, “Ağıllı” lövhə ilə bağlı resurslar | Vizual resurslar: şəkil, xəritə, sxem, qrafik və s. |
|---|---|---|---|---|---|---|---|
| 1 | Şagirdlər toxuna bilir və görür | + | | | | | |
| 2 | Sinif xaricinə çıxarıla bilir | + | + | | | | |
| 3 | Dərsdən sonra çıxış etmək və imtahana hazırlaşmaq üçün istifadə oluna bilir | | + | | | | |
| 4 | Bir necə şagirdin eyni zamanda iştirakını təmin edir | | + | | | | |
| 5 | Asanlıqla silinib, yenidən hazırlana bilir | | + | | | | |
| 6 | Az xərc tələb edir | | + | | | | |
| 7 | Dərs zamanı ifadələr və açar sözlər yazıla bilər | | + | | | | |
| 8 | Kiçik qrup üçün də istifadə edilə bilir | + | + | | | | + |

**Cədvəl 3.3.1-in ardı**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 9 | Tam işıqlı bir mühitdə istifadə oluna bilir | + | + | | + | + | + |
| 10 | Sadə vizuallardan hazırlanır | | + | | | | |
| 11 | Əvvəldən vizualı hazırlamaq lazımdır | | + | + | + | | + |
| 12 | Təqdimatda qısa cümlələr, açar sözlər, dərs planı istifadə edilə bilər | | + | | | | |
| 13 | Asan daşımaq olur | | + | + | + | | + |
| 14 | Satın alınan resurslardan istifadə edilməlidir | | + | + | + | | + |
| 15 | Materialların verilmə ardıcıllığı asanlıqla dəyişə bilir | | + | + | | + | + |
| 16 | İstifadəçiyə nəzarət imkanı verir, təqdimatın bir hissəsi təkrar oluna bilər | | | + | + | + | + |
| 17 | Oxumaq çətinliyi və ya danışma problemi olan şagirdlər üçün münasibdir | + | | + | + | + | + |
| 18 | Səs qeydiyyatı var | | | | + | + | |
| 19 | İstifadəsi asandır | | | + | + | | |
| 20 | Yüksək səviyyədə gerçək görüntünü (rəng və s) təmin edir | + | | + | + | + | + |

**Cədvəl 3.3.1-in ardı**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 21 | Müəllimin köməyi olmadan müstəqil istifadə oluna bilər | | + | + | + | + | |
| 22 | Hərəkətliliyi göstərir, görüntünün gedişi yavaşıdılaraq, izlənə bilir | | | | + | + | |
| 23 | Təhlükəli hadisə, proses və faktları gerçək müşahidə imkanı verir | - | | | + | + | |
| 24 | Yaratma, ixtira etmə kimi müstəqil iş mühiti yaradır | | | | + | + | |
| 25 | Qrup müzakirələrinə yol açan problem situasiyaların yaradılması, fərziyyələrin irəli sürülməsi, onun həll edilməsi mühitini yaradır | | | | + | + | |
| 26 | Şəxsi və ictimai davranışları formalaşdırır | | | | | | |

Resursun xüsusiyyətləri. Məktəbdə kompüter, proyektor, laboratoriya, "Ağıllı" lövhə və s. kimi əsas tədris avadanlıqları və resursların olub-olmaması tədris metodu və resursun seçilməsinə, həmçinin tədris prosesində istifadəsinə təsiri böyükdür.

Təhsilin bütün pillələri üzrə, fənlərin təbiətinə müvafiq resursların seçim və istifadə prosesində aşağıdakı tələblər gözlənilməlidir:

İstifadə müddəti təyin edilməlidir (haradan və nə vaxt başlanacaq, nələr ediləcək və s.); hansı tədris resursu və avadanlığın (video, şəkil, qrafik; kompüter, "Ağıllı" lövhə, proyektor və s.) istifadə

ediləcəyi konkretləşdirilməlidir; lazım olan tədris resursu və avadanlıqları bir araya gətirilməlidir (video, şəkil, xəritələr, internet, proyektor, kompüter, “Ağıllı” lövhə və s.); planlaşdırılmış tədris resursunun texniki tərəfi hərtərəfli müəyyən edilməli; dizayn qanunauyğunluqları nəzərə alınmalıdır.

IV Fəsil “Eksperimentin ümumtəhsil məktəblərində qoyuluşu. Nəticələrin təhlili və ümumiləşdirilməsi” adlanır və iki paraqrafa bölünür. Bu fəsildə ümumtəhsil məktəblərində tədris resurslarından istifadənin təlimin keyfiyyətinə təsiri, şəxsiyyətyönlülük, nəticəyönlülük mövqeyindən onun mahiyyəti açılr, tətbiq prpinsipləri müasir pedaqoji baxımdan şərh edilir, ümumi təhsildə aparılan məzmun islahatlarının zəruri təhsil komponenti kimi əhəmiyyəti qeyd olunur.

IV fəslin birinci paraqrafı “Tədris resurslarından istifadə imkanları” adlanır. Burada eksperimentin ikinci mərhələsinin nəticələri, yeni təhsil siyasətinə uyğun tədris resurslarından səmərəli istifadənin əsas mahiyyəti, əhəmiyyəti, ümumpedaqoji məsələləri, başlıca istiqamətləri, çatışmazlıqlar, forma və həll yolları, inkişaf istiqamətləri əsaslanıdırılr, bu işin həyata keçirilməsinin spesifik xüsusiyyətləri araşdırılır.

Sinif mühitində tədris resursları ilə işin təşkilinin aşağıdakı formalarını göstərmək olar: İnternet dərslər; Təqdimat dərslər; Seminar-dərslər; Zehni-intellektual dərslər; Layihə-dərslər; Kombinə olunmuş dərslər: kompüter,“Ağıllı” (Smart) lövhə, internet və s. istifadə olunmaqla müəllimin izahatı ilə müşahidə olunan dərslərin təşkili; Online - dərslər və s.

Sinif mühitində tədris resurslarından istifadə etmək üçün müəyyən prinsiplər nəzərə alınmalıdır: tədris ili üçün hazırlanmış iş planına uyğunluq: tədris resurslarından (o cümlədən tədris avadanlığından) istifadəni nəzərdə tutan tədris prosesinin yaxşı bir şəkildə planlaşdırılması; müəllimin müvafiq bilik və bacarığa sahib olması; şagirdin “kəşf edən”, “tədqiqatçı” mövqeyində olması; müəllimin fasilitator (ingiliscə facilitation - əlverişli şərait yaratma), aparıcı, istiqamət verən mövqeyində olması; şagirdlərin psixoloji cəhətdən dəstəklənməsi,

yaş və fərdi xüsusiyyətlərin nəzərə alınması; müəllimin şagirdlərlə əməkdaşlıq etməsi; məqsədlərin qoyuluşunda və bunların həllində şagirdlərə metodik kömək göstərməsi; öyrənmə formasını nəzərə alması; şagirdlərin öz potensialını həyata keçirə bilməsi üçün şərait yaradılması; yeni biliyin müəllim tərəfindən deyil, şagirdlər tərəfindən aşkara çıxarılması; birdən çox duyğu orqanına müraciət edən tədris resurslarından istifadə edilməsi; asanlıqla əldə edilən və istifadə üçün yararlı olması, çətin və çox bahalı olan tədris avadanlığı və resurslardan istifadə edilməməsi; maliyyə imkanının və vaxt amilinin nəzərə alınması; tədris mühitinin fiziki xüsusiyyətlərinin diqqət mərkəzində saxlanması;

Sinif mühitində tədris resursları ilə işin təşkilinin biri də, təqdimat dərsləridir. Təqdimat dərsləri mexaniki əzbərləmə əvəzinə, təhsilalanların başa düşərək, dərk edərək öyrənməsinin təmin olunmasında əsasən "Ağıllı" lövhədən istifadə edilərək, təşkil olunur.

Dissertasiyada müasir təhsil strategiyasına müvafiq tarix fənninin inkanlarına istinad olaraq, şagirdlərin müstəqilliyinin genişləndirilməsi, idrak fəallığının inkişaf etdirilməsi, müasir tədris resursları və avadanlıqlarından istifadə edilməklə yeni təhsil modelləri təklif olunur, onların işlək mexanizmə çevrilməsi üçün konstruktiv təkliflər verilir.

Yeni pedaqoji təfəkkür baxımından təhsil sistemində tədris resurslarından istifadə obyekti kimi tədris resuslarının və müəllimin rolu tədricən yüksəlir. Sinif mühitində psixoloji və mənəvi atmosferin səmərəliliyi müəllimlərin hər birinin səyindən, onların pedaqoji ustalığından, pedaqoji etikaya və taktikaya necə yiyələnmələrindən, nəzəri və metodik hazırlığından, müəllim-şagird münasibətlərini qura bilmə səviyyəsindən asılıdır.

Müasir tədris resuslarından istifadənin müsbət nəticəsi adətən, həyata keçirilmiş işin son nəticəsi ilə ölçülür. Müasir tədris resuslarından istifadənin ölçü meyarı nəticə sayılır. Nəticə yüksəkdirsə, demək, tədris prosesində müasir tədris resuslarından səmərəli və səmərəli istifadə olunub. Tədris prosesində müasir tədris resuslarından istifadə,

bu istiqamətdə aparılan işlər təlim prosesinin təşkili qaydasında olmadıqda, müasir tədris resuslarının səmərəlili istifadə olunmasından söhbət gedə bilməz.

Aparılmış eksperimentin nəticəsi göstərir ki, ümumtəhsil məktəblərində tədris resurslarının sistematik tətbiqi şagirdlərin müstəqil yaradıcı axtarış aparması, yaradıcı düşünmə, təşəbbüskar, təlimdə yüksək müvəffəqiyyət əldə edtmələri baxımından nəzəri və praktik imkanları böyükdür.

Bu paraqrafda göstərildiyi kimi, müasir tədris resurslarından istifadənin reallaşması məhz məktəbin funksiyalarına daxildir, problemin həll olunmasında müəllimin və məktəb rəhbərliyinin üzərinə daha ciddi vəzifələr düşür.

IV fəslin ikinci paraqrafı “Eksperimentin nəticələrinin təhlili və ümumiləşdirilməsi” adlanır. Bu paraqrafda pedaqoji eksperiment təhlil edilmiş, ümumiləşdirmələr aparılmış, nəticələr verilmişdir. Şagird və müəllimlərin müxtəlif istiqamətlərdəki fəaliyyətləri qiymətləndirilərək, istinad mənbəyinə çevrilmişdir. Cədvəl və diaqramlarda ifadə olunmuş nəticələrin şərhi verilir.

Eksperiment zamanı aşağıdakı fərziyyə irəli sürülmüşdür: Ümumtəhsil məktəblərində müasir tədris resurslarından səmərəli istifadə olunması o zaman mümkündür ki, bu fəaliyyət elmi cəhətdən əsaslandırılsın və praktik baxımdan təcrübədə yoxlanılsın.

Bu istiqamətdə konseptual yanaşmalar nəzərdə tutur ki: tədris resurslarından istifadə infrastruktur və subyektlərində dəyişikliklər arasında qanunauyğun əlaqələr həyata keçirilsin. Yəni: tədris prosesində müəllim heyətinin peşəkarlıq səriştəliliyi yüksəldilsin; sinif mühitində səmərəli mənəvi-psixoloji atmosfer bərqərar olsun; təhsilalanlarda yaradıcı, tədqiqatçılıq təfəkkürünün inkişafı, kommunikativ bacarıqlar, əqli fəaliyyətin fəallığı, nəzəri biliklərin təcrübədə tətbiq etdirilməsi, ünsiyyət qabiliyyətinin inkişaf etdirilməsi kimi keyfiyyətlər təmin edilsin; müəllim-şagird münasibətləri düzgün qurulsun; müasir tədris resursları nəzəri-pedaqoji, psixoloji və fizioloji əsaslarla sistemli tətbiq edilsin; təhsilalanlarda təlimə, özünütəhsilə və özünü-

təkmilləşməyə tələbat formalaşdırılsın; tədris resurslarından istifadə zamanı hər şagirdin fərdi xüsusiyyətinə və potensial imkanına uyğun inkişafı təmin edilsin; müasir elm və texnologiya sahəsində meydana gələn inkişafın, yeniliklərin tədris resurslarının məzmununa təsiri nəzərə alınsın.

Pedaqoji eksperiment 2015-2017-ci illərdə üç mərhələdə (müəyyənləşdirici, öyrədici və yoxlayıcı) aparıldı. EksperimentBakı şəhərinin 82 saylı məktəbində, o cümlədən Azərbaycanın müxtəlif bölgələrində: ölkənin Şimal, Cənub, Şərq, Qərb coğrafi bölgələrini əhatə edən Lənkəran və Gəncə şəhərləri, Qəbələ, Oğuz və Quba rayonlarının ümumtəhsil məktəblərində keçirilmişdir.

Pedaqoji eksperimentin üçüncü – yoxlayıcı mərhələsində başlıca məqsəd ondan ibarət idi ki, sinif mühitində tədris resurslarının təchizi və müəllim tərəfindən səmərəli istifadə olunmasının təşkili səviyyəsini aşkara çıxaraq. Ayrı-ayrı fənlər üzrə dərs məşğələləri, müxtəlif formalarda təşkil olunan tədbirlər, müəllim və şagirdlərin fəaliyyəti, müəllim-şagird, şagird-şagird münasibətləri, təlim prosesinin idarə edilməsinin təşkili səviyyəsi müşahidə olundu. Problemlə bağlı vəziyyəti müəyyənləşdirmək üçün müəllimlər və tələbələrlə sorğu aparıldı.

Eksperimentin keçirildiyi illərdə, yeri gəldikcə, dərslərdə iştirak edilmiş, məşğələdən sonra aparılan qeydlər əsasında məsləhətlər verilmişdir. Tədris resurslarından istifadəninin diqqətəlayiq cəhətləri ilə yanaşı məşğələnin optimallaşdırılması və təkmilləşdirilməsi ilə bağlı qənaətlər də bildirilmişdir.

Dissertasiyada tarix fənni üzrə “Səfəvi dövlətinin tarixi”nin tədrisi və dərs prosesində müasir tədris resurslarından isdtifadəyə münasibət öz əksini tapmışdır.

Yuxarıda qeyd olunduğu kimi, eksperimental və kontrol qruplar müəyyən edildi. Eksperimental qruplarda işlər elə qurulmuşdu ki, yeni pedaqoji təfəkkürün tələbləri əsasında sinif mühitində tədris resurslarından sistemli, məqsədyönlü istifadə etmək məsələlərinə diqqət yetirilirdi. Odur ki, bir müddət sonra eksperimental və kontrol qrupların göstəricilərində fərqlər meydana gəldi. Sistemli, planauyğun,

məqsədyönlü və fasiləsiz fəaliyyətin nəticəsi olaraq eksperimental qruplarda xeyli irəliləyiş oldu. Aşağıdakı cədvəldən (cədvəl 4.2.1) bu barədə ətraflı məlumat almaq mümkündür:

**Cədvəl 4.2.1**

**I və II mərhələnin müqayisəli təhlilini əks etdirən cədvəl**

| Testin №-si | Sinif | Şag. sayı | Eksperimentin mərhələləri | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | I mərhələ | | | II mərhələ | | |
| | | | Düzgün | imtina | Səhv | Düzgün | İmtina | Səhv |
| 1. | Eks. | 207 | 48,8% | 22,7% | 28,5% | 66,7% | 14,0% | 19,3% |
| | Kont. | 202 | 45,5% | 27,2% | 27,2% | 47,0% | 29,7% | 23,3% |
| 2. | Eks. | 207 | 40,1% | 26,5% | 33,3% | 63,2% | 14,5% | 22,2% |
| | Kont. | 202 | 35,6% | 26,2% | 38,1% | 40,6% | 27,7% | 31,7% |
| 3. | Eks. | 207 | 41,5% | 24,2% | 34,3% | 63,8% | 14,5% | 21,7% |
| | Kont. | 202 | 37,6% | 24,2% | 38,1% | 41,0% | 24,7% | 34,2% |
| 4. | Eks. | 207 | 38,6% | 30,9% | 30,4% | 65,2% | 12,6% | 22,2% |
| | Kont. | 202 | 37,6% | 28,2% | 34,1% | 45,0% | 30,1% | 24,7% |
| 5. | Eks. | 207 | 43,0% | 26,0% | 30,9% | 67,1% | 14,5% | 18,4% |
| | Kont. | 202 | 40,0% | 25,2% | 34,7% | 49,0% | 29,2% | 21,8% |
| 6. | Eks. | 207 | 38,6% | 22,2% | 39,1% | 69,0% | 12,0% | 18,8% |
| | Kont. | 202 | 34,7% | 24,8% | 40,6% | 40,0% | 25,7% | 34,2% |
| 7. | Eks. | 207 | 44,0% | 26,6% | 29,4% | 68,1% | 14,0% | 17,9% |
| | Kont. | 202 | 42,0% | 27,7% | 30,1% | 44,6% | 27,7% | 27,7% |
| 8. | Eks. | 207 | 42.) % | 24,2% | 34,8% | 68,6% | 14,0% | 17,4% |
| | Kont. | 202 | 38,1% | 24,3% | 37,6% | 42,6% | 25,7% | 31,7% |
| 9. | Eks. | 207 | 38,2% | 29,0% | 32,4% | 64,3% | 12,0% | 23,7% |
| | Kont. | 202 | 35,1% | 27,7% | 37,1% | 38,6% | 29,2% | 32,2% |
| 10. | Eks. | 207 | 44,4% | 27,5% | 28,0% | 68,6% | 15,5% | 15,9% |
| | Kont. | 202 | 40,5% | 28,7% | 30,7% | 45,5% | 27,2% | 25,7% |
| 11. | Eks. | 207 | 39,1% | 24,6% | 36,2% | 66,7% | 12,6% | 20,1% |
| | Kont. | 202 | 35,1% | 26,7% | 38,1% | 41,0% | 26,2% | 32,7% |

Müəyyənedici və yoxlayıcı mərhələnin tapşırıqlar üzrə nəticələrinin müqayisəli təhlili Əlavə 21-30-da ifadə olunmuşdur.

Eksperiment və kontrol qrupların göstəricilərinin müqayisəli təhlili göstərir ki, eksperiment qrupun şagirdləri problemin mahiyyətini daha yaxşı dərk etmiş, onların göstəriciləri kontrol qrupun şagirdləri ilə müqayisədə daha yüksəkdir.

Beləliklə, aparılmış araşdırmanın nəticəsi fənnin məzmunu ilə bağlı kompüter texnologiyası və digər tədris resurslarından istifadə edilməsi, onların təhsil üçün ideal bir vasitə olduğu fikrini bir daha təsdiq etmişdir. Belə ki, ümumtəhsil məktəblərində təlim prosesində tədris resurslarından məqsədyönlü, planauyğun, sistemli və fasiləsiz istifadə edildikdə öyrənmə və öyrətmə daha əlverişli olub, təhsilalanların idrak fəallığının təmin olunmasında, fənlər üzrə biliklərə yiyələnmələrində, məntiqi təfəkkür səviyyəsinin, bilik səviyyəsinin real surətdə, obyektiv şəkildə üzə çıxarılmasında, müəllim-şagird münasibətlərinin düzgün qurulmasında, təlim keyfiyyətinin və kommunikativ bacarıqların yüksəlməsində mühüm rol oynayır. Ona görə də, müəllimlərin problemlə bağlı istər təlim prosesində, istərsə də dərsdənkənar vaxtlarda sistemli, ardıcıl iş aparmaları məqsədəmüvafiqdir.

Dissertasiyanın nəticə hissəsində tədqiqatın məzmunundan irəli gələn fikir və mülahizələr ümumiləşdirilmiş, müddəalar şəklində verilmişdir. Aparılmış tədqiqat aşağıdakı nəticələrə gəlməyə imkan verir: Azərbaycan müstəqillik qazandıqdan sonra cəmiyyətin bütün sahələrində, eləcə də təhsil sistemində həm forma, həm də məzmunca dövün tələblərinə uyğun ciddi dəyişikliklər edilmiş və edilməkdədir. Belə ki, yeni təhsil nəzəriyyəsi, təhsil sahəsində dövlət siyasətinin əsas istiqamətləri, təhsilin məzmunu, məqsədi və strukturunun müəyyənləşdirilməsi istiqamətində müvafiq addımlar atılmış, xüsusi tipli məktəblər üçün ilk dəfə olaraq milli tədris proqramları və dərsliklər hazırlanmış, təhsil sistemi beynəlxalq təhsil sisteminə inteqrasiya olunmuş, beynəlxalq təcrübənin son nailiyyətlərinə əsaslanan müasir milli təhsil sisteminin əsasları qoyulmuşdur.

Hazırda ölkənin təhsil sistemində İKT bazası əsasında yeni təlim metodikasını tətbiq etməyin öyrənilməsi, resurslar bazasının yaradılması, tədris prosesində İKT-nin effektiv tətbiqi üçün məktəb rəhbərlərinin və müəllimlərin motivasiyasının artırılması, habelə məktəb infrastrukturunun təkmilləşdirilməsi və təchizatın həyata keçirilməsi günün vacib tələbidir. Müəllimlər müasir tədris resursları: kompüter texnologiyası mənşəli və audiovizual resurslar, internet, "Ağıllı" lövhə, proyektorlar və digər oxşar texnoloji yenilikləri izləmək məcburiyyətindədirlər.

Yekun olaraq qeyd etmək lazımdır ki, tədris resurslarının tətbiqində diqqət ediləcək əsas amillər bunlardır: məqsədə və mövzuya uyğunluğu; əldə edilməsi və istifadə etmənin asanlığı; şagirdin yaş və fərdi xüsusiyyətlərinə uyğunluğu; müəllim və şagirdin resursa qarşı münasibəti; fiziki şəraitin uyğunluğu, tədris prosesində məqsədlərin reallaşmasına kömək etməsi; səmərəli öyrənməyi təmin etməsi; şagirdi yeni fəaliyyətlərə yönəltməsi; zaman və iqtisadi cəhətdən sərfəli olması və s.

Bu müsbət cəhətlərlə yanaşı, aparılan tədqiqat məktəblərdə bu istiqamətdə bir sıra ciddi problemlərin olduğunu üzə çıxarmışdır. Tədris prosesində müasir tədris resurslarından səmərəli istifadə məsələsində mövcud olan problemləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Məktəb və maliyyə ilə bağlı problemlər: Məktəblərin kifayət qədər müasir tədris resursları (o cümlədən tədris avadanlıqları) ilə təchiz edilməməsi. Məktəblərdəki avadanlıqların vaxtından əvvəl sıradan çıxması; sinif otaqlarının fiziki vəziyyətinin müəllimlərin müasir tədris resurslarından istifadə etmələrinə çətinlik yaratması. Müəllimlərə görə, sinif daxilində dərs zamanı müasir tədris resurslarından istifadə zamanı ən böyük maneə, sinif otaqlarında hər hansı bir texnoloji qurğunun (kompüter, proyektor, ağıllı (smart) lövhə və s.) və lazımi fiziki şəraitin mövcud olmaması ilə bağlıdır.

"Elektron məktəb"lər istisna olmaqla, məktəblərin böyük əksəriyyətində tək bir kompüter otağının olması səbəbindən, müasir tədris

resurslarından istifadə etmək üçün kompüter otağının müəllimlər tərəfindən bir həftə əvvəl ad və imza qoymaqla verilməsinin tələb olunması; məktəblərin internetə çıxışının zəif olması.

2.Müəllim və tədris plan ilə bağlı problemlər: Müəllimlərin kompüter biliklərinin zəif olması, təhsil prosesini dəstəkləyən elektron tədris resurslarından səmərəli istifadə üzrə bilik və bacarıqların yetərli olmaması; məktəb rəhbərliyinin müasir tədris resursları ilə bağlı yeniliklər haqqında məlumatlarının aşağı səviyyədə olması; bir çox hallarda məktəb rəhbərliyinin müasir tədris resurslarından istifadəni təşviq etməməsi, tədris proqramının ağırlığı; tədris proqramını yerinə yetirmək səyi; fənlər üzrə tədris proqramı və illik planın çox geniş olması, xüsusilə bəzi mövzuların həcminin böyüklüyü; fənlərin məzmununa müvafiq Azərbaycan dilində olan milli tədris resurslarının məhdudluğu; ən çox ədəbiyyat və ictimai fənlər üçün bu məsələdə sıxıntının yaşanması, texniki mütəxəssislərin sayının azlığı; fənn müəllimlərinin müasir tədris avadanlığı (kompüter, ağıllı (smart) lövhə) və s.) və resurslardan istifadə edilməsi ilə bağlı metodik dəstəyin

çox az olması; siniflərdə uşaqların sayının çoxluğu, məktəb-valideyn əlaqələrinin bu istiqamətində köməyinin zəif olması; müasir tədris resurslarından istifadənin üstünlükləri və imkanları ilə bağlı məlumatlandırma işinin lazımi səviyyədə aparılmaması; təlim zamanı tədris resurslarından istifadənin didaktik, fizioloji və psixoloji əsaslarının lazımi səviyyədə nəzərə alınmaması.

Tədqiqat işi aşağıdakı **təklifləri** irəli sürmək imkanı yaradır:

- Sürətlə inkişaf edən müasir texnologiyalar ilə birlikdə tədris resurslarının yenilənməsi, günün tələblərinə cavab verə bilən vəziyyətə gətirilməsi, imkanlarından və üstünlüklərindən daha səmərəli istifadə olunması; hər bir təhsil müəssisəsinin ilk növbədə lazımi texniki avadanlıqla, resurslarla təchiz edilməsi və bütün təhsil müəssisələrinin vahid təhsil şəbəkəsinə qoşulmasının reallaşdırılması.

- Müasir tədris resurslarının tətbiqində sistemli yanaşmaya xüsusi əhəmiyyət verilməsi. Sistemli yanaşma təhsilin məqsəd, məzmun, metod, tədris resurslarına və tədris avadanlıqlarına bir-birini

adekvat olaraq, tamamlayacaq şəkildə bütöv bir sistem kimi baxılması. Komponentlərin birində olan dəyişiklik bütün elementlərə təsir etdiyindən, sistemin düzəldilməsinin bir qanun olaraq mənimsənilməsi vacibdir.

- Azərbaycanın bütün təhsil müəssisələrinin (o cümlədən, ucqar bölgələrdə yerləşən məktəblərin) sürətli internet bağlantısı ilə təmin olunması; müvafiq dövlət qurumlarının bu məsələdə, lazımi dəstək verməsi. Məktəblərin internetə qoşulmasını həyata keçirərkən, şagirdləri zərərli informasiyadan mühafizə etmək və internetdə təhlükəsizliyini təmin etmək üçün filtrasiya (süzgəc) prosesinin təmin olunması məqsədi ilə dünyanın qabaqcıl ölkələrinin təcrübəsinin öyrənilməsi, məktəblərdə internetdən istifadə qaydalarının yaradılması ilə bağlı tədbirlərin görülməsi.

- Müəllimlərin müasir tədris avadanlıqları və resurslardan istifadəsi üçün müvafiq bilik və bacarıqlara yiyələnməsi məqsədilə xidmətdaxili təlim kurslarının geniş şəkildə təşkil edilməsi, bu prosesin sistematik olaraq davam etdirilməsi, eyni zamanda bu xidmətin pulsuz olması. Müəllimlər arasında bu sahəyə maraq yaratmaq üçün stimullaşdırma işinin aparılması. Müəllimləri bu sahəyə təşviq etmək məqsədi ilə Elm və Təhsil Nazirliyi tərəfindən ildə bir dəfə qabaqcıl müəllimlərə və məktəblərə müasir tədris avadanlıqları: kompüter, proyektor, planşet, video-kamera və s. hədiyyə edilməsi.

- Müasir tədris resursları sahəsində təhsil standartları və tədris proqramlarının hazırlanması və təkmilləşdirilməsi. Onların tədris prosesində sistemli şəkildə illik planlaşdırılması.

- Təhsil sisteminin müasir tədris resursları (o cümlədən avadanlığı) üzrə normativ hüquqi bazasının yaradılması və inkişafı.

- Müəllimlərin tədris planının çoxluğundan irəli gələn vaxt çatışmazlıqlarının aradan qaldırılması. Fənn müəllimlərinə müasir kompüter texnologiyasına əsaslanan resurslardan səmərəli şəkildə istifadə edilməsi işində yetərli vaxt verilməsi.

- Məktəb rəhbərliyinin müasir tədris resurslarından istifadə məsələsini daim diqqət mərkəzində saxlaması və bu işdə müəllimlərə

dəstək verməsi. Bu sahədə baş verən yeniliklərlə bağlı məktəb rəhbərliyinin rolunun artırılması, bu işlə bağlı onlarda daha geniş təsəvvür formalaşdırmaq məqsədilə xüsusi treninq kurslarının təşkili.

- Bütün fənlərin məzmununu əhatə edən Azərbaycan dilində milli elektron resursların hazırlanması və pulsuz müəllimlərin istifadəsinə verilməsi. Tədris resurslarının hazırlanmasında və tətbiqində şagirdlərin fərdi və yaş xüsusiyyətlərinin nəzərə alınması.

- Elektron kitabxanaların sayının artırılması.

- Müasir tədris avadanlıqları və resurslarından istifadə edilməsi üzrə kursun gələcək müəllimlər üçün pedaqoji ali təhsil müəssisələrinin tədris proqramına daxil edilməsinin vacibliyi. Ali məktəblərin pedaqoji yönümlü fakültələrində təhsilin ilk pilləsində tələbələrə davamlı olaraq müasir tədris avadanıqlarından ("Ağıllı (smart) lövhədən istifadə, word-power-point-excel dərsləri, dərsdənkənar şagirdlərlə ünsiyyət, xəbərləşmə, tapşırıq paylaşması, active inspire və s.) istifadə edilməsi ilə bağlı sistematik dərslər verilməsi, onların yeni texnologiyaya dair nəzəri biliklər və praktik bacarıqlara yiyələnmələrinin təmin edilməsi.

- Təhsildə müasir tədris resurslarının davamlı tətbiqinin təmin olunması üçün məktəb-valideyn, müəllim-şagird arasında ardıcıl ünsiyyət və koordinasiyanın təmin olunması. Məktəbdənkənar vaxtlarda olsa belə, texnoloji cihazların köməyi ilə müəllim-şagird ünsiyyəti, xəbərləşmə, tapşırıq və lazımi sənədlərin paylaşmasının həyata keçirilməsi.

- Maarifləndirmə tədbirləri-müasir tədris resursları ilə bağlı yeniliklər barədə təhsil işçilərini, xüsusən məktəblərdə fəaliyyət göstərən pedaqoji işçiləri məlumatlandırmağa istiqamətlənmiş televiziya verilişlərinin yaradılması və onun mütəmadi davam etdirilməsi vacibdir.

**Tədqiqatın məzmunu, əsas elmi ideyaları və alınan nəticələri iddiaçının nəşr etdirdiyi aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Məmmədova N.İ. Yeni kurikuluma uyğun müasir tədris resurslarının yaradılması. "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası: persperktivlər və vəzifələr". Bakı: ARTPİ-ninTəhsil Texnologiyaları Mərkəzi, 2015, s. 260-302.

2. Məmmədova N.İ. Təlim prosesində tədris avadanlıqları və resursların istifadəsinə yeni yanaşma. Bakı: Qızlar Universitetinin Elmi əsərləri, 2016. № 2(26), s. 59-65.

3. Məmmədova N.İ. Tədris avadanlıqları və resursların məzmununun dəyişməsini zəriuri edən amillər. Azərbaycan məktəbi, 2016, № 2 (672), s. 51-57

4. Məmmədova N.İ. Humanitar fənlər üzrə tədris resurslarının məzmununa müasir yanaşma. ARTPİ-nin Elmi əsərləri, 2016. № 2 (83), s. 17-23.

5. Məmmədova N.İ. Tədris resurslarının istifadəsində müəllimin rolu. Bakı: Slavyan Universitetinin Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası elmi-məqalələr məcmuəsi), 2016. № 2, s. 286-292.

6. Məmmədova N.İ. Tədris resurslarından istifadə zamanı qarşıya çıxan problemlər haqqında. Azərbaycan məktəbi, 2016. №6 (676), s.35-40.

7. Məmmədova N.İ. Müasir neyrofizyoloji öyrənmə modelinin sistemi və imkanlar. ARTPİ-nin Elmi əsərləri, 2016. №4 (83), s.214-218.

8. Məmmədova N.İ. Tədris avadanlıqları və resursların inkişafı ilə bağlı araşdırma. Bakı: Slavyan Universitetinin Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası elmi-məqalələr məcmuəsi), 2016. № 4, s.289-295.

9. Məmmədova N.İ. Keyfiyyətli təhsil xidmətlərinin təqdim olunmasında müasir tədris avadanlıqları və resursların rolu. Bakı: Qızlar Universitetinin Elmi əsərləri, 2016. № 4(28), s.89-95.

10. Məmmədova N.İ., Xəlilov V.C. Virtual ünsiyyət texnologiyalarında yaşanan dəyişmə və inkişafın məktəb-valideyn əməkdaşlığına təsiri. Məktəb-valideyn əlaqələrinin pedaqoji əməkdaşlıq

əsasında yenidən qurulması məsələləri. Metodik vəsait, Bakı: Mütərcim, 2016. s.54-67.

11. Мамедова Н.И. Рол современного учебного оборудования и электронных ресурсов в когнитивном развитии учащихся. Балтийский гуманитарный журнал. Россия, г. Калининград, Типография «Полиар Плюс». 2016. том 5, №4(17), стр.261-263.

12. Məmmədova N.İ. Vizual resurslar-zehni xəritələrin təlim prosesində yeri və əhəmiyyəti. Bakı: Qızlar Universitetinin Elmi əsərləri, 2017. № 2 (30), s.93-96.

13. Məmmədova N.İ. İctimai fənlərin tədrisində anlayış xəritələri və məlumat xəritələrindən istifadə prioritet istiqamətlərdən biri kimi. ARTİ-nin Elmi əsərləri, 2017. № 1 (84), s.41-47.

14. Məmmədova N.İ. İkiölçülü vizual resurslar: zehni xəritələr və anlayış xəritələrinin praktik və nəzəri məsələləri. Bakı: Slavyan Universitetinin Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası elmi-məqalələr məcmuəsi), 2017. № 1, s. 293-297.

15. Мамедова Н.И. Использование компьютерных технологий в процессе обучения по предметам истории и географии: реальность и перспективы. Вестник «Alatoo Academic Studies», Международный научный журнал, Издание Международного университета Ататюрк-Алатоо, Бишкек Кыргызыстан, 2017. № 3, стр. 91-98.

16. Məmmədova N.İ. Təhsil sistemində müasir texnologiyadan istifadənin hüquqi qaynaqları. Bakı: Slavyan Universitetinin Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası elmi-məqalələr məcmuəsi), 2018. № 2, s. 122-128.

17. Məmmədova N.İ. Virtual ünsiyyət texnologiyalarının bəzi xüsusiyyətləri. ARTİ-nin Elmi əsərləri, 2018. № 4(85), s.199-206.

18. Məmmədova N.İ. Öyrənmə tipləri. Tədris resurslarından istifadə məsələsində öyrənmə tiplərinin rolu. ARTİ-nin Elmi əsərləri, 2018. № 5(85), s.230-235.

19. Məmmədova N.İ. Öyrənmənin təbii-elmi (fizioloji) əsaslarına dair. Bakı: Slavyan Universitetinin Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası elmi-məqalələr məcmuəsi), 2018. № 3, s.200-205.

20. Məmmədova N.İ. Tədris resurslarının səmərəli seçilməsi məsələsi. Bakı: Qızlar Universitetinin Elmi əsərləri, 2018. № 3(35), s.116-122.

21. Məmmədova N.İ. XXI əsr-tədris resursları. ARTİ-nin Elmi əsərləri, 2019. № 2(86), s. 27-32.

22. Məmmədova N.İ. Texnoloji avadanlıqların və resursların umumtəhsil məktəblərində istifadəsinə dair araşdırma. Azərbaycan məktəbi, 2019. № 2 (687), s. 24-46.

23. Məmmədova N.İ. XXI əsr - yeni müəllim nəsli haqqında. ARTİ-nin Elmi əsərləri, 2019. (86), № 4, s.132-136.

24. Məmmədova N.İ. İctimai fənlərin tədrisində müasir texnoloji avadanlıqlar və resurslardan istifadə. Azərbaycan məktəbi, 2019. № 4 (689), s. 119-132.

25. Mammadova N.I. Researching the problems of universal schools in terms of equipment and resource. Journal of Critical Reviews(JCR). Tower23/4, Jaian ampang, Kuala Lumpur, Malayziya, 2020. № 18 (Vol.7), pp. 2518-2523.

26. Mammadova N.I. New stage in Azerbaijani ducation: "electronic school" - about national education model. Revista Gênero & Direito's Edition. 12 ,2020. № 05 (Vol.9), 244. ISSN | 2179-7137 https://www.academia.ed u/43772837/Narmina_M ammadova Web of Science Core Collection: Emerging Sources Citation Index.

27. Mammadova N.İ., Batıyeva A. The dynamics of the development process of measuring and control materials in SCSA / 38th annual conference (2012. Astana, Kazakhstan // 16-21. 09.2012. paper_38ae8b8. docx(470). https://iaea.info/conference-proceedings/ https://iaea.info/conference-proceedings/38th-annual-conference-2012/?cp_=3(469)

28. Məmmədova N.İ. Ümumitəhsil məktəbləri üçün milli tarix

dərsliklərinin məzmun problemləri. “Təhsildə mənəvi-əxaqi dəyərlər: harmonik şəxsiyyətin inkişafı” mövzusunda Beynəlxalq elmi konfransın materialları. Bakı şəhəri, 5-6.12. 2014, Bakı: Kövsər, 2014, s.96-101.

29. Məmmədova N.İ. Ümumitəhsil məktəblərində tarix fənninin tədrisində avadanlıq və tədris resurslarından istifadəyə müasir yanaşma istiqamətləri. “Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar” mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan şəhəri, 5-6 iyun, 2015. Bakı: Mütərcim, 2015, s.142-144.

30. Məmmədova N.İ. Humanitar fənlər üzrə tədris resurslarının məzmununa və qiymətləndirilməsinə təsir edən amillər. “Şagird nailiyyətlərinin qiymətləndirilməsi, məzmun və vasitələrin yaradılması”mövzusunda Beynəlxalq elmi konfransın materialları, Bakı, 25 iyun, 2016, s. 225-227.

31. Məmmədova N.İ. Müasir tədris avadanlıqları və resurslardan istifadənin dəstəklənməsi sistemi - “Elektron məktəb” modeli. “Azərbaycanda təhsil siyasətinin prioritetləri: müasir yanaşmalar” mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan şəhəri, 25 noyabr, 2016, Bakı: ARTPİ-nin Təhsil Texnilogiyalar Mərkəzinin nəş. s.253-255.

32. Мамедова Н.И. О планировании учебных ресурсов. “Международного научного форума: Наука и инновации- современные концепции”. Москва: Издательство Инфинити, 26 июля, 2019 г. Том 2, стр.23-28.

33. Мамедова Н.И. Интеграция современных учебных ресурсов в учебный процесс. Педагогика и психология в современном мире: теоретические и практические исследования. сб. ст. по материалам XXVI междунар. науч.-практ. конф. Изд. «Интернаука», -2019, № 8(26), -с.26-30, https://www.internauka.o rg / conf/pedagogy/xxvi

34. Məmmədova N.İ. Ümumtəhsil məktəblərində tədris avadanlıqları və resurslardan istifadə imkanları. Metodik vəsait. Bakı: Mütərcim, 2017, 220 s.

35. Məmmədova N.İ. Ümumtəhsil məktəblərində tədris avadanlıqları və resurslarından istifadə problemlərinə yeni yanaşma. Monoqrafiya. - Bakı: Mütərcim, 2017. 352 s

36. Мамедова Н.И. Правовые нормы регулирования использования овременных технологий в образовательной системе Республики Азербайджан (историко-правовой анализ). Учредители: Журнал “Вопросы истории”. Москва:2021, № 10-2, s. 245-252 (21,943). ISSN: 0042-8779 https://www.elibrary.ru/item.asp?id=47200357

37. Mammadova N.I. Innovaciones en el campo de la educación en el Azerbaiyán Moderno, problemas del período covid 19, uso de tecnolo -Gías educativas. la Revista un espacio virtual de aprendizaje Cornado: 2022, Vol. 18 núm. 86: s.381-386 (4,067). https://conrado.ucf.edu.cu/index.php/conrado/article/view/2432

38. Mammadova N.I. Educational resources as a means of improving the quality of education. BULLETIN OF POSTGRADUATE EDUCATION Collection. Educational Sciences Series. Київ: 2024, 27(56), с. 70-83 (25355). http://umo.edu.ua/pedaghoghichni-nauki-vipuski/zbirnik-naukovikh-pracj-visnik-pisljadiplomnoji-osviti-serija-pedaghoghichni-nauki-vipusk-27-56-2024

39. Mammadova N.I. Opportunities for teachers to use educational resources in the modern era. MODERN ASPECTS OF MODERNIZATION OF SCIENCE: STATUS, PROBLEMS, DEVELOPMENT TRENDS Materials of the 41th International Scientific and Practical Conference Ankara (Turkey): February 7, 2024. с. 152-156 (6,565). http://perspectives.pp.ua/public/site/conferency/conf-41.pdf

40. Mammadova N.I. The essence and content of the concept “Educatıonal resources”. MODERN ASPECTS OF MODERNIZATION OF SCIENCE: STATUS, PROBLEMS, DEVELOPMENT TRENDS Materials of the 43th International Scientific and Practical Conference Peshtera (Bulgaria)// 7 April, 2024, s. 89-92 (8,155), conf-43.pdf (perspectives.pp.ua).

Dissertasiya işinin müdafiəsi 24 oktyabr 2024-ci il tarixdə saat $14^{00}$-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki BED 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1000, Bakı, Ü. Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformsiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 23 sentyabr 2024-cü il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.09.2024
Kağızın formatı: 60x84, 1/16
Həcm: 86100 işarə
Tiraj: 100